**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFININ MALİYYƏ MƏNBƏLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏNİN KONSEPTUAL ƏSASLARI

İxtisas: 5307.01 – "İqtisadi nəzəriyyə"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Elşən Əli oğlu İbrahimov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi AMEA-nın İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Əli Xudu oğlu Nuriyev**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Şahbaz Musa oğlu Muradov**

Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

iqtisad elmləri doktoru, professor
**Vahid Tapdıq oğlu Novruzov**

iqtisad elmləri doktoru, professor
**Veysəl Seyfəl oğlu Əyyubov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffər oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Fuad Əlinağı oğlu Qənbərov**

## GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Davamlı inkişaf və onun təmin olunması problemləri müvafiq elmi dairələr və tədqiqatçıların daim müzakirə obyektidir. Bu istiqamət dövlətin fəaliyyətinin əsas dayaqlarından olmaqla, makroiqtisadi proseslərin mərkəzi həlqələrindən birinə çevrilmişdir. Belə ki, hər bir ölkədə əldə edilən müsbət tendensiya və uğurlar, yaxud müəyyən problemlər davamlı inkişaf məqsədlərinin reallaşdırılmasının nəticəsi kimi özünü büruzə verir.

Davamlı inkişafa dair müasir nəzəriyyələrin bu gün üçün qarşısında duran ən mühüm məsələlərdən biri cəmiyyətin mövcud sosial-iqtisadi problemlərinin səmərəli həlli üçün elmi əsasların işlənib hazırlanmasıdır. Bu baxımdan qeyd edilən məqsədə nail olmaq üçün maliyyə mənbələrindən səmərəli istifadənin elmi-nəzəri əsaslarının işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir. Həmçinin, dünya iqtisadiyyatında baş verən proseslərə rəğmən, bu mühüm problemin hərtərəfli tədqiqi və həlli yollarının müəyyənləşdirilməsi zərurəti hər an meydana çıxır. Çünki davamlı inkişafın kəmiyyət ölçüləri bazar iqtisadiyyatı yolunu seçmiş ölkələrdə yeni təmayüllü sosial-iqtisadi inkişaf prosesləri qarşısında müəyyən problemlər yaradır. Kəmiyyət parametrlərindən keyfiyyət göstəricilərinə keçid isə davamlı inkişafın qiymətləndirilməsində, onun bu parametrlərinin mövcud durumunu əks etdirən optimal sistemlərin axtarışı probleminin uğurlu həllinin reallaşdırılmasında maliyyə mənbələrindən səmərəli istifadəni də zəruri edir. Bu məsələlərin nəzəri-metodoloji problemlərinin həlli isə həmişə öz aktuallığı ilə diqqəti cəlb edir.

Bu gün ölkəmizin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq dünyada baş verən proseslərlə əlaqədar geriliyə yol verməmək, innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişləndirilməsinə əsaslanaraq iqtisadiyyatın davamlı inkişafı və rəqabətqabiliyyətlilik səviyyəsini yüksəltmək müstəsna əhəmiyyət kəsb edir. Belə ki, rəqabətqabiliyyətliliyin yüksəldilməsi iqtisadi tərəqqiyə təsir edən əsas amillərdən, elementlərdən biri olmaqla davamlı inkişafın güclənməsinə də xeyli təsir göstərir.

Ölkədə uğurla həyata keçirilən neft strategiyası sayəsində əldə olunmuş resurslar hesabına makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənmiş, infrastruktur

modernləşdirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, əhalinin sosial rifahının davamlı olaraq yaxşılaşdırılmasına nail olunmuşdur. Həyata keçirilən iqtisadi islahatların və siyasətin davamlılığının təmin edilməsi üçün iqtisadiyyatın vəziyyətinin təhlili və yeni çağırışlara uyğun perspektiv inkişaf strategiyasının hazırlanması məqsədilə bir sıra konsepsiya və dövlət proqramları ilə yanaşı Respublika Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri" və 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müvafiq istiqamətlər üzrə məqsəd və hədəflərin seçilməsində, reallaşdırılması nəzərdə tutulan tədbirlərin qiymətləndirilməsində və maliyyələşmə mexanizmlərinin müəyyənləşdirilməsində xüsusi rol oynamışdır.

Göründüyü kimi, ölkəmizdə mövcud iqtisadi potensiala əsaslanan davamlı inkişaf səviyyəsini təmin etmək istiqamətində kompleks tədbirlər reallaşdırılır. Bu istiqamətdə əsas vəzifə Azərbaycan Respublikasının milli maraqlarının daim qorunması, ölkə iqtisadiyyatının bazar münasibətləri və mövcud mənafelər sisteminin tələblərinə uyğun şəkildə rəqabətqabiliyyətli və davamlı inkişaf etdirilməsidir. Bu tip münasibətlərin səmərəli təşəkkülü və inkişafının əsas məqsədi isə milli dirçəlişin, davamlı inkişafın, sürətlə qloballaşan dünya dövlətləri ilə iqtisadi inteqrasiyanın tam təmin edilməsi və bu prosesin mənfi fəsadlarını minumuma endirməkdən ibarətdir. Davamlı inkişafa əsaslanan bu model isə hər bir təsərrüfat subyekti, regionlar və bütövlükdə ölkəmizin davamlı inkişafını təmin edən amillərə söykənərək, sivil bazar münasibətlərinə uyğun aparılan islahatların əsas prioritetlərini və parametrlərini özündə əks etdirir.

Qürur hissi ilə qeyd etmək yerinə düşər ki, 27 sentyabr 2020-ci il tarixdən başlamış 44 günlük Vətən Müharibəsində Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusu Qarabağı Ermənistanın işğalından azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Zəngin təbiətə, əlverişli coğrafi-iqti-

sadi potensiala malik işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, dirçəlməsi və ümumrespublika təsərrüfat dövriyyəsinə cəlb edilməsi yaxın gələcəkdə ölkəmizin iqtisadi potensialını xeyli gücləndirəcəkdir.

Yuxarıdakılara və digər arqumentlərə əsaslanaraq qeyd etmək olar ki, Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının yeni keyfiyyət mərhələsinə daxil olması, xüsusən də elmtutumlu texnologiyaların geniş tətbiqi nəticəsində davamlı inkişafın, o cümlədən iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində maliyyə mənbələrindən səmərəli istifadə problemlərini yeni tələblər baxımından tədqiq etməyi obyektiv zərurətə çevirir. Çünki etibarlı maliyyə mənbələri yaratmadan və onlardan maksimum səmərəli istifadə etmədən iqtisadiyyatın davamlı inkişafını təmin etmək mümkün deyil. Bu baxımdan iqtisadiyyatın davamlı inkişafının maliyyə mənbələrindən səmərəli istifadənin konseptual əsaslarının tədqiqinə həsr edilmiş dissertasiya işinin mövzusu öz aktuallığı ilə diqqəti cəlb edir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə qeyd olunmalıdır ki, tədqiq olunan mövzunun müxtəlif istiqamətlər üzrə araşdırılması ilə həm klassik, həm də müasir dövrün görkəmli iqtisadçıları məşğul olmuşlar. Məsələn, davamlı inkişaf problemlərinə klassik yanaşma A.Smit, D.Rikardo, C.Keyns və digərlərinin əsərlərində öz əksini tapmışdır.

Diqqəti cəlb edən əsas məqam odur ki, keçən əsrin sonlarında bu istiqamətlərdə aparılan analoji yönümlü tədqiqatların ana xəttini – iqtisadi tənəzzülün qarşısının alınması və makroiqtisadi sabitliyin təmin edilməsi təşkil edirdisə, yaşadığımız yeni əsrin başlanğıcında bu meyllər azalmış və baş verən iqtisadi canlanma nəticəsində maliyyə resurslarının səmərəli istifadəsi və davamlı inkişaf problemlərinin araşdırılması yenidən öz aktuallığını bərpa etmişdir.

Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, U.K.Ələkbərov, Ə.X.Nuriyev, Ş.M.Muradov, A.F.Musayev, N.M.İmanov, G.Z.Yüzbaşıyeva, İ.H.Alıyev, M.X.Həsənli, E.A.Quliyev, B.X.Ataşov, Ə.P.Babayev, M.A.Əhmədov, Q.N.Manafov, M.X.Meybullayev, V.T.Novruzov, T.N.Əliyev, A.Ş.Şəkərəliyev, R.Ş.Muradov, İ.A.Kərimli, F.F.Mustafayev, M.M.Sadıqov, Ş.S.Qafarov, Ə.Q.Əlirzayev, M.C.Atakişiyev, Ş.T.Əliyev, F.Ə.Qənbərov, V.S.Əyyubov, S.Y.Hüseynov, R.S.Abdullayeva və başqaları davamlı inkişafın bu və digər problemlərini araşdırmışlar.

Bütövlükdə, çağdaş davamlı inkişaf, o cümlədən davamlı iqtisadi inkişaf nəzəriyyəsinin nəzəri-metodoloji aspektlərinin tədqiqi ilə məşğul olan A.Peççei, C.Forester, M.Mesoroviç, E.Pestel, E.Laslo, L.İ.Abalkin, Y.Tinbergen, V.Koptyuk, N.Moiseyev, A.Ursul, V.Qolubev, O.Dreyer, V.Los, R.Kostansa, A.Pozdnyakov, S.Qlazyev, Q.Fetişov, P.Munin kimi xarici ölkə alimlərinin əsərləri maraq doğuraraq, diqqəti cəlb edir.

Lakin bunlarla yanaşı, qloballaşma meylləri və sürətlə dəyişən dünyanın tələblərinə uyğun olaraq, 2020-2021-ci illərdə dünya əhalisini ölümcül təhlükəyə atmış COVİD-19 pandemiyasının ümumbəşəri iqtisadi tərəqqiyə vurduğu maliyyə itkilərini nəzərə alaraq yeni iqtisadi təfəkkür müstəvisində davamlı iqtisadi inkişafın maliyyə mənbələrindən səmərəli istifadənin tədqiqinin nəzəri və metodoloji əsaslarının, o cümlədən bu prosesin Azərbacan modelinin formalaşmasının indiki dövrün tələbləri baxımından işlənməsini zəruri edir. Bütün bunlar dissertasiya mövzusunun seçilməsini və onun ətraflı tədqiq olunmasını şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyekti** kimi Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafının təmin olunmasının maliyyə mənbələri götürülmüşdür.

Dissertasiya işinin **predmetini** davamlı iqtisadi inkişafın məzmun elementləri və onun təmin olunmasının maliyyə mənbələri ilə əlaqədar müxtəlif elmi baxışların tədqiqi, bu istiqamətdə meydana çıxan iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi davamlı iqtisadi inkişafın nəzəri-metodoloji əsaslarını təhlil etməklə alınan nəticələri Azərbaycan şəraitində tətbiq edərək onun təmin olunması üçün maliyyə mənbələrindən səmərəli istifadə edilməsi istiqamətində konseptual, həmçinin təcrübi xarakterli təklif və tövsiyələr hazırlamaqdan ibarətdir.

Göstərilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- qloballaşma mühitində iqtisadiyyatın davamlı inkişafının fəlsəfi-konseptual və nəzəri əsaslarını tədqiq edərək burada yaranmış yeni keyfiyyətləri aşkara çıxarmaq;
- iqtisadiyyatın davamlı inkişafının təmin olunmasında maliyyə-

investisiya mənbələrindən səmərəli istifadəni araşdıraraq zəruriliyini əsaslandırmaq;

- milli mənafelər əsasında iqtisadi təhlükəsizliyin təmin olunmasının mahiyyətini açmaq və şərtlərini göstərmək;
- davamlı inkişafın təmin olunmasında qeyri-neft sahələrinin inkişafının sürətləndirilməsinin zəruriliyini əsaslandırmaq və istiqamətlərini müəyyən etmək;
- davamlı inkişafın maliyyə təminatını, o cümlədən büdcə-vergi məsələlərini təqdiq edərək, burada olan müsbət və mənfi cəhətləri aşkara çıxarmaq;
- qloballaşma mühitində Azərbaycan iqtisadiyyatının mövcud durumunu davamlılıq baxımından təhlil etmək və qiymətləndirmək;
- müasir maliyyə böhranının iqtisadiyyatın davamlı inkişafına təsirini araşdırmaq və qiymətləndirmək;
- xarici investisiyalar və iqtisadiyyatın davamlı inkişafının makroiqtisadi səviyyədə təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək;
- xarici bazara çıxışın sürətləndirilməsi istiqamətində maliyyə-investisiya siyasətinin təkmilləşdirilməsinə xüsusi önəm verilməsini əsaslandırmaq;
- rəqabətqabiliyyətliliyin davamlı iqtisadi inkişafın mühüm şərti olmasını tədqiq edərək müvafiq nəticələr əldə etmək;
- iqtisadiyyatın davamlılığının təmin olunmasında büdcə xərclərindən səmərəli istifadə yollarını göstərmək;
- investisiya resurslarından səmərəli istifadə və innovasiya yönümlü iqtisadiyyatın üstün inkişafının zəruriliyini əsaslandırmaq;
- Azərbaycanda davamlı iqtisadi inkişaf göstəricilərinin ümumi daxili məhsula təsirinin proqnozlaşdırılması;
- yuxarıda sadalanan vəzifələrin yerinə yetirilməsi ilə bağlı təklif və tövsiyələr vermək.

**Tədqiqat metodları.** Tədqiqat metodları kimi klassik, neoklassik və müasir iqtisadi məktəblərin nümayəndələrinin çoxsaylı elmi-nəzəri yanaşmalarına, bu istiqamətdə formalaşmış müxtəlif nəzəriyyələr, konsepsiyalar və tədqiqatlara əsaslanaraq çoxsaylı metod və metodoloji üsullardan, o cümlədən dialektik, tarixi - genetik, sintez, induksiya və deduksiya, sistemli yanaşma, müqayisəli iqtisadi təhlil, müşahidə,

proqnozlaşdırma və digərlərindən sistemli şəkildə istifadə olunmuşdur.

Tədqiqat metodları tətbiq edilərkən dissertasiya işinin informasiya bazasını mövzu üzrə yerli, xarici ölkə alim və mütəxəssislərinin apardıqları müvafiq tədqiqatların nəticələri, iqtisadi cəhətdən yüksək inkişaf etmiş ölkələrin əldə etdikləri müsbət təcrübələr, beynəlxalq maliyyə və iqtisad yönümlü qurumların dərc etdikləri hesabat məlumatları, eyni zamanda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadiyyat, Maliyyə, Kənd Təsərrüfatı, Vergilər Nazirliklərinin, Mərkəzi Bankın rəsmi statistik məlumatları, müxtəlif səviyyəli elmi-praktik konfrans materialları, şəxsi müşahidə materialları, İnternet resursları və sair informasiya mənbələri təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat mövzusuna uyğun olaraq müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– davamlı inkişafın yaranma səbəbləri və səciyyəvi cəhətlərinin nəzəri-metodoloji aspektdə tədqiq edilməsi zəruridir;

– iqtisadi inkişafın davamlı olması üçün dayanıqlılıq və etibarlılıq mühüm şərtdir;

– davamlı iqtisadi inkişaf etibarlı maliyyə təminatı tələb edir;

– qeyri-neft sahələrinin inkişafı davamlı iqtisadi artıma əsaslı zəmin yaradacaqdır;

– ölkənin real şəraitinə uyğun büdcə-vergi sisteminin formalaşdırılması davamlı iqtisadi inkişafın maliyyə təminatında müstəsna əhəmiyyət kəsb edir;

– Azərbaycan iqtisadiyyatının dinamik artımı davamlı iqtisadi inkişafı şərtləndirmişdir;

– ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsinin vacib şərtlərindən biri kimi sağlam rəqabət mühiti formalaşdırılmalı və tədricən gücləndirilməlidir;

– davamlı iqtisadi inkişafın təmin edilməsində innovasiya yönümlü və modernləşməyə əsaslanmış proqram və layihələrin reallaşdırılması müasir dövrün tələbidir;

– Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın əsasını təşkil edən ÜDM-in həcmi proqnozlaşdırılaraq müəyyən edilmişdir ki, 2030-cu ilədək ÜDM artan dinamika ilə inkişaf edəcəkdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin yerinə yetirilməsi prosesində aşağıdakı elmi yeniliklər əldə olunmuşdur:

- qloballaşma mühitində iqtisadiyyatın davamlı inkişafının fəlsəfi-konseptual və nəzəri əsasları kompleks şəkildə tədqiq edilmiş, nəzəri yanaşmalar sistemləşdirilmişdir;
- iqtisadiyyatın davamlı inkişafının təmin olunmasında maliyyə-investisiya mənbələrindən səmərəli istifadənin daha mütərəqqi mexanizmi işlənilmişdir;
- davamlı inkişafa milli mənafelərin əlaqələndirilməsi konteksində baxılaraq onun iqtisadi təhlükəsizliyin təmin olunmasında roluna dair təkliflər kompleksi irəli sürülmüşdür;
- davamlı iqtisadi inkişafın təmin olunmasında qeyri-neft sahələrinin rolu, ona maliyyə və vergi sisteminin təsiri tədqiq edilərək əsaslandırılmışdır;
- iqtisadiyyatın davamlılığının təmin olunmasında büdcə xərclərindən səmərəli istifadəyə dair kompleks təkliflər paketi hazırlanmışdır;
- investisiya resurslarından səmərəli istifadənin təkmilləşdirilməsi və innovasiya yönümlü iqtisadiyyatın qurulmasının konsepsiyası işlənilmişdir;
- Azərbaycanda iqtisadiyyatın davamlı inkişafında mühüm rol oynayan ÜDM-lə milli iqtisadiyyatın inkişafını xarakterizə edən bir sıra göstəricilər arasında asılılığın ekonometrik təhlili aparılmış və riyazi asılılıq müəyyənləşdirilmişdir;
- Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın əsasını təşkil edən ÜDM-in 2030-cu illədək proqnozu işlənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, davamlı inkişaf istiqamətində formalaşmış müxtəlif nəzəriyyələr, mövcud elmi-nəzəri yanaşmalar, konsepsiyalar, qanunauyğunluqlar, Azərbaycan iqtisadiyyatının davamlı inkişafının maliyyə mənbələrindən səmərəli istifadənin konseptual əsaslarının ümumi prinsipləri müasir yanaşmalar baxımından tədqiq edilmiş və ümumiləşdirilmişdir. İşin nəzəri nəticələri gələcəkdə bu sahədə aparılacaq tədqiqatlar üçün yetərli mənbə olacaqdır.

Dissertasiya işinin təcrübi əhəmiyyəti onunla şərtlənir ki, tədqiqat prosesində əldə olunan əsas nəticə və müddəalar, irəli sürülən təklif və tövsiyələr perspektivdə dövlətin iqtisadi siyasəti müəyyənləşdirilərkən

idarəetmə orqanlarında, hökumət qurumlarında praktiki şəkildə istifadə olunmaqla yanaşı, ölkəmizdə iqtisadiyyatın davamlı inkişafında maliyyə mənbələrindən daha səmərəli istifadə üzrə gələcəkdə dövlət proqramlarının işlənməsi və reallaşdırılması prosesində, habelə milli iqtisadiyyatın sektorlarının inkişafı üzrə yeni Strateji Yol Xəritələrinin hazırlanmasında da gərəkli ola bilər.

Əldə olunmuş müddəaların və metodiki yanaşmaların, həmçinin gənc iqtisadçı kadrların hazırlanmasını nəzərdə tutan tədris proqramlarının tərtibatında da istifadəsi mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda müəyyənləşdirilmiş elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun seçilmişdir.

Tədqiqat işi üzrə ölkəmizdə və xaricdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallarda, həmçinin beynəlxalq elmi-nəzəri, elmi-praktik konfrans materiallarında ümumi 134,3 ç.v. həcmində, 40 adda elmi məqalə və tezis çap edilmişdir. Bundan əlavə, 2018-ci ildə 320 səhifə – 518577 işarə həcmində "İqtisadiyyatın davamlı inkişafının maliyyə-büdcə tənzimlənməsi və stimullaşdırılması problemləri" adlı monoqrafiya elmi ictimaiyyətə təqdim edilmişdir.

Tədqiqatın əsas nəticələrini əks etdirən elmi əsərlər sırasında respublika və beynəlxalq elmi-praktik konfrans materiallarında dərc olunmuş "Dövlətin sosial siyasətinin büdcə-maliyyə tənzimlənməsi" (Bakı, 2010), "Maliyyə resursları və onun iqtisadi inkişafa təsiri" (Bakı, 2014), "Davamlı iqtisadi inkişafın maliyyə təminatı: dövlət büdcəsi" (Gəncə, 2017), "Основные условия взаимосвязи устойчивого развития с модернизацией" (Тамбов, 2017), "Механизмы регулирования устойчивого экономического развития" (Санкт- Петербург, 2020) adlı tezislərdə, "Azərbaycan Respublikasının büdcə siyasəti və onun əsas istiqamətləri" (Bakı, 2009), "İnvestisiya yönümlü büdcə siyasəti iqtisadi inkişafın mühüm amilidir" (Bakı, 2012), "Qloballaşma şəraitinin xarakterik cəhətləri və bunun iqtisadi inkişafın davamlılığına təsiri" (Bakı, 2015), "Финансово-инвестиционные факторы устойчивости экономического развития" (Москва, 2016, в базе РИНЦ, в базе Aqris), "Национальные интересы и обеспечение экономической безопасности государства" (Санкт-Петербург, 2016, импакт-фактор

РИНЦ), "Azərbaycanda iqtisadi dinamikanın davamlılıq baxımından təhlili" (Bakı, 2017), "Роль финансово-инвестиционной политики в обеспечении устойчивого развития экономики" (Москва, 2017, импакт-фактор РИНЦ), "Davamlı iqtisadi inkişafın təmin edilməsində maliyyə-investisiya mənbələrindən səmərəli istifadə istiqamətləri" (Bakı, 2018), "Effective use of investments to ensure sustainable economic development" (Baku, 2018, baza Web of Science), "Davamlı inkişaf şəraitində dövlət büdcəsindən səmərəli istifadə istiqamətləri" (Bakı, 2019), "Financial and investment issues in the strategic management of sustainable development of the economy" (Baku, 2020, ISSN 1849-7535) adlı məqalələri göstərmək olar.

Həmçinin dissertasiya işinin əsas müddəaları və metodiki aspektləri Azərbaycan Kooperasiya Universitetində tədris prosesində, doktorantların, magistrlərin və bakalavrların tədqiqatlarında istifadə edilir (Məktub № 01/88, 01 iyun 2021-ci il).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə həcmi.** Tədqiqat işi giriş, 5 fəsil, nəticə və 294 sayda ədəbiyyat siyahısından ibarət olmaqla, kompüter yazısı ilə 274 səhifə həcmindədir. İş giriş – 17388 işarə, I fəsil – 77973 işarə, II fəsil – 90748 işarə, III fəsil – 66593 işarə, IV fəsil – 84767 işarə, V fəsil – 122111 işarə, nəticə – 28679 işarə olmaqla, cədvəllər, diaqramlar, qrafiklər və ədəbiyyat siyahısı nəzərə alınmadan cəmi 488259 işarədən ibarətdir.

## MÜNDƏRİCAT

Giriş

**I FƏSİL. İqtisadiyyatın davamlı inkişafının və onun maliyyə təminatının nəzəri-metodoloji əsasları**

1.1. Davamlı inkişafın mahiyyəti, yaranması səbəbləri və səciyyəvi cəhətləri
1.2. İqtisadiyyatın davamlı inkişafının nəzəri-metodoloji aspektləri və sosial yönümlülük xüsusiyyətləri
1.3. İqtisadiyyatın davamlı inkişafının təmin olunmasında maliyyə-investisiya mənbələrindən istifadənin zəruriliyi və müasir çalarları

**II FƏSİL. Dayanıqlı və davamlı inkişafın iqtisadi təhlükəsizliyin təmin edilməsinə təsirinin konseptual aspektləri**

2.1. Milli mənafelərə uyğun iqtisadi təhlükəsizliyin təmin olunması
2.2. Qeyri-neft sahələrinin fəaliyyətinin gücləndirilməsi davamlı inkişafın vacib şərti kimi
2.3. Davamlı inkişafın maliyyə-resurs strategiyasının işlənməsi: büdcə-vergi məsələləri

**III FƏSİL. Azərbaycanda iqtisadiyyatın davamlılığının təmin olunmasında maliyyə-investisiya mənbələrindən istifadənin müasir durumunun qiymətləndirilməsi**

3.1. Azərbaycanın müasir iqtisadi inkişaf modeli və davamlı inkişaf prinsipləri
3.2. Davamlı inkişaf baxımından Azərbaycan iqtisadiyyatının mövcud durumunun təhlili
3.3. Müasir maliyyə-iqtisadi böhranların ölkə iqtisadiyyatının davamlı inkişafına təsirinin qiymətləndirilməsi

**IV FƏSİL. Azərbaycanda iqtisadiyyatın davamlı inkişafını şərtləndirən əsas amillər**

4.1. Xarici investisiyalar və makroiqtisadi səviyyədə iqtisadiyyatın davamlı inkişafına əlverişli mühitin formalaşdırılması
4.2. Xarici bazara çıxışın sürətləndirilməsi istiqamətində maliyyə-investisiya siyasətinin təkmilləşdirilməsi
4.3. Rəqabətqabiliyyətliliyin yüksəldilməsinin davamlı iqtisadi inkişafa təsiri

**V FƏSİL. Azərbaycan iqtisadiyyatının davamlı inkişafında maliyyə-investisiya mənbələrindən səmərəli istifadə istiqamətləri**

5.1. İqtisadiyyatın davamlılığının təmin olunmasında büdcə xərclərindən səmərəli istifadə yolları
5.2. İnvestisiya resurslarından səmərəli istifadənin zəruriliyi və təkmilləşdirilməsi
5.3. İqtisadiyyatın innovasiya yönümlü inkişafı və modernləşməsi istiqamətləri
5.4. Azərbaycan iqtisadiyyatında davamlı inkişaf göstəricilərinin ümumi daxili məhsula təsirinin proqnozlaşdırılması

Nəticə
İstifadə edilmiş ədəbiyyat siyahısı

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Davamlı inkişafın yaranma səbəbləri və səciyyəvi cəhətlərinin nəzəri-metodoloji aspektdə tədqiq edilməsi zəruridir.**

XX əsrin II yarısından başlayaraq cəmiyyət-təbiət münasibətlərində yaranmış gərginliyin sosial-ekoloji təsirlərinin araşdırılması Davamlı İnkişaf Konsepsiyasının meydana gəlməsini şərtləndirmişdir. Bəşəriyyətin inkişafının perspektivləri, elmi-texniki inqilabın neqativ nəticələrinin aradan qaldırılması məsələləri, ekoloji problemlərin həlli yolları ilk dəfə olaraq ciddi şəkildə İtaliya biznesmeni və alimi A.Peççei tərəfindən 1968-ci ildə yaradılmış və müasir dövrün qlobal problemlərini tədqiq edən beynəlxalq qeyri-hökumət təşkilatı olan Roma klubunun məruzələrində araşdırılmağa başlanılmışdır. İlk olaraq, Roma klubunun fəal üzvlərindən olan ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun professoru C.Forester 1971-ci ildə çap etdirdiyi "Dünya dinamikası" kitabında əhali artımı, kapital qoyuluşu, bərpa olunmayan təbii ehtiyatların istifadəsi, ərzaq istehsalı və ətraf mühitin çirkləndirilməsi məsələlərinin riyazi modelləşdirilməsinə cəhd etmişdir.

1972-ci ildə isə Roma klubunun digər üzvü R.Medouzun rəhbərlik etdiyi tədqiqat qrupu tərəfindən hazırlanmış "Artım həddi. Roma klubuna məruzə" adlı kitabda ekoloji baxımdan davamlı inkişaf konsepsiyasının ayrı-ayrı cəhətləri şərh edilmişdir. Davamlı inkişaf anlayışının müəyyənləşməsi ilə əlaqədar göstərilirdi ki, təbii resurslardan istifadənin məhdudlaşdırılması biosferin insanın istehsal-təsərrüfat və sosial-mədəni fəaliyyətinin mənfi nəticələrinin aradan qaldırılması imkanlarından asılıdır.

Roma klubunun "Bəşəriyyət yol ayrıcında" adlanan 2-ci məruzəsi 1974-cü ildə M.Mesaroviç və E.Pestel tərəfindən hazırlanmışdır. Bu məruzədə müəlliflər insanla təbiət və yoxsullarla varlılar arasında getdikcə dərinləşməkdə olan uçuruma diqqət yetirməyi dünya alimlərinin, bəşəriyyətin nəzərinə çatdırmışlar. Daha sonra isə Holland iqtisadçısı Y.Tinbergen tərəfindən hazırlanmış "Beynəlxalq qaydaların yenidən qurulması" adlanan 3-cü məruzə lokal və qlobal məqsədlərin uzlaşdırılmasını dünya ictimaiyyətinə bəyan etmişdir. E.Laslo tərəfindən hazırlanmış "Qlobal cəmiyyətlər üçün məqsədlər" adlanan 4-cü

məruzədə qlobal problemlərin həlli yolları, o cümlədən cəmiyyətin təşkili və idarə olunması, maddi rifahın yaxşılaşdırılması yolları, tullantıların təkrar emalı, enerjidən istifadə məsələləri və s. təhlil edilmişdir.

Dünyada daha geniş miqyasda və tez-tez müzakirə edilən davamlı inkişaf problemi həllinin nəzəri əsasını, həmçinin ötən əsrin 80-ci ilindən etibarən BMT-nin təşkilatçılığı ilə müxtəlif zamanlarda və yerlərdə ardıcıl olaraq keçirilən yığıncaqlarda qəbul edilən sənədlər təşkil edir. Başlıca məqsədi indiki nəslin zəruri tələbatlarının gələcək nəslin mənafeyinə toxunmadan ödənilməsindən ibarət olan davamlı inkişaf ekoloji təhlükəsizlik, fasiləsiz istehsal, insanların yaşayış şəraitinin daim yaxşılaşdırılması, bütün dövrlərdə təbiət-cəmiyyət münasibətlərinin uzlaşdırılması və s. kimi məsələləri əhatə edir.

“Davamlı inkişaf” ifadəsi ilk dəfə olaraq 1980-ci ildə Beynəlxalq Təbiəti Mühafizə İnstitutuna təqdim edilmiş “Ümumdünya təbiəti mühafizə strategiyası” adlı məruzədə səslənmişdir. Bu məruzədə “davamlı inkişaf” anlayışı həyat keyfiyyətini yaxşılaşdırmaq və insanların tələbatını ödəmək üçün bərpa edilən və bərpa edilməyən təbii ehtiyatlardan, insan resurslarından səmərəli istifadə və biosferin modifikasiyası kimi müəyyənləşdirilmişdir. Bu anlayışın dünya ictimaiyyətinin diqqətinə çatdırılması isə 1984-cü ildə Norveçin Baş Naziri Q.X.Brutlandın rəhbərlik etdiyi BMT-nin “Ətraf mühit və inkişaf” komissiyasının hazırladığı “Bizim ümumi gələcəyimiz” adlı məruzənin çap olunmasından sonra baş vermişdi.

Beləliklə, XX əsrin 90-cı illərində (xüsusən, BMT-nin 3-14 iyun 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində baş tutmuş konfransından sonra) “davamlı inkişaf” müstəqil anlayış kimi nəinki elmi və kütləvi ədəbiyyatda geniş yayılmış, eyni zamanda, dövlət başçıları və siyasi xadimlərin çıxışlarında da daha tez-tez işlədilməyə başlamışdır.

Tədqiqatçılar arasında davamlı inkişaf anlayışının geniş yayılmasına baxmayaraq, hələlik onun inkişaf konsepsiyası kimi elmi cəhətdən əsaslandırılmış vahid tərifi müəyyənləşməmişdir. Məsələn, rus alimlərindən akademik V.A.Koptyukun, akademik N.N.Moiseyevin, akademik A.D.Ursulun, V.S.Qolubevin, O.K.Dreyerin və V.A.Losun əsərlərində davamlı inkişaf konsepsiyası və anlayışı fərqli tərəflərdən şərh edilir.

Azərbaycanlı alimlərdən akademik U.K.Ələkbərov, akademik Z.Ə.Səmədzadə, AMEA-nın müxbir üzvü, prof. Ə.X.Nuriyev, prof. S.Y.Hüseynov, prof. N.M.İmanov, prof. İ.H.Alıyev, prof. M.A.Əhmədov, prof. A.Ş.Şəkərəliyev, prof. T.N.Əliyev və digər alimlər də davamlı inkişaf anlayışının izahına öz əsərlərində geniş yer vermişlər. Ümumilikdə, azərbaycanlı alimlərin yanaşmalarının nəticəsi olaraq davamlı inkişafı gələcək nəsilin tələbatına toxunmadan indiki nəsilin tələbatının daha dolğun şəkildə ödənilməsini təmin edəcək konseptual baxış kimi qəbul etmək olar.

Göründüyü kimi, davamlı inkişaf anlayışının müəyyənləşdirilməsində istər yerli, istərsə də xarici tədqiqatçıların mövqeləri müxtəlif olsa da, bir ümumilik mövcuddur ki, bu da təbii-iqtisadi ehtiyatlardan qənaətlə, düşünülmüş şəkildə, israfçılığa yol vermədən istifadə və təbiət-cəmiyyət münasibətlərində tarazlığın qorunması kimi məsələlərdir. Yanaşmalarda müxtəlifliyin başlıca səbəbi isə davamlı inkişaf konsepsiyasının bir çox elmlərin qovşağında yerləşməsi və onun universal xarakter daşıması ilə əlaqədardır. Belə olan halda, müasir dövrdə qloballaşan dünyanın və sosial-iqtisadi proseslərin yeni çağırışlarının ciddi təhlil edilərək nəzərə alınması zərurət təşkil edən məsələlərdəndir. Bu baxımdan akademik Z.Səmədzadə yazır ki, *"biz sözsüz və şərtsiz olaraq qloballaşma amilini obyektiv reallıq kimi qəbul etməliyik və hesablaşmalıyıq. Real olaraq respublikamız regional proqnozlarda müxtəlif əməkdaşlıq səviyyələrində iştirak edir. Müstəqil dövlətin effektiv fəaliyyəti milli iqtisadiyyatın inkişafı ilə bağlıdır. Bu istiqamətlərin hər birinin müsbət və mənfi cəhətləri vardır. Bu reallıqların hər hansı birinin inkar edilməsi ciddi neqativ fəsadlarla, milli maraqların pozulması ilə nəticələnə bilər. Bir sözlə, biz inkişaf strategiyasını formalaşdırarkən mütləq bütün bu amilləri, vəziyyəti, daha dəqiq müasir dövrün tələblərini və reallıqlarını nəzərə almalıyıq".*[1]

AMEA-nın müxbir üzvü, professor Ə.X.Nuriyevin fikrincə, *"davamlı inkişaf konsepsiyasının, o cümlədən davamlı insan inkişafı konsepsiyasının mərkəzində davamlı iqtisadi inkişaf, ətraf mühitin müha-*

---

[1] Səmədzadə Z.Ə. Böyük yolun mərhələləri – Azərbaycanın yarım əsrlik iqtisadiyyatı, onun yeni reallıqları və perspektivləri. Bakı, 2004, səh. 21.

*fizəsi və işsizlik probleminin həlli durmalıdır. Bu problemlərin həlli mexanizmləri aydın müəyyənləşdirilməlidir”.*[2]

Akademik U.K.Ələkbərov və prof. S.Y.Hüseynov davamlı inkişafa daha çox BMT-nin “Davamlı İnkişaf Konsepsiyası” kontekstindən yanaşırlar. Bu alimlərə görə, davamlı inkişaf iqtisadi, sosial və ekoloji məsələlərə kompleks yanaşmanı tövsiyə edir, davamlı inkişaf dedikdə qeyd edilən hər üç istiqamət üzrə səmərəli olan dinamik proses nəzərdə tutulur.

İqtisadçı alim, professor M.A.Əhmədova görə isə, *“davamlı inkişaf xarici təsirlərə dözümlü və dinamik surətdə inkişaf deməkdir”.*[3]

Həmçinin, professor A.A.Şəkərəliyevin araşdırmalarında göstərilir ki, *“Davamlı inkişafın elmi ədəbiyyatlarda müxtəlif səpkilərdə şərh olunmasına baxmayaraq, onun əsas mahiyyətini insanların tələblərini ödəməyə qadir olan və onların tələbatlarının ödənilməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin icra edilməsinin yeni formasını təşkil edir. Bu tələblər isə yalnız ətraf mühitin qorunması, təbii sərvətlərdən və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi, bunun üçün isə yeni texnologiyaların yaradılması və onların istehsalatda geniş tətbiq olunması zəminində həyata keçirilə bilər”.*[4]

Davamlı inkişaf konsepsiyasının fəlsəfi təhlilində müxtəlif elm adamları arasında ciddi mübahisə doğuran məsələlərdən biri də terminoloji məsələdir. İngiliscə “sustainable”, Azərbaycan dilində - “davamlı”, “dayanıqlı”, “fasiləsiz”, “sabit”, “uzunmüddətli” mənasını verir. İngilis dilində “sustainable devolepment” kimi təqdim edilən ifadə Azərbaycan dilində “davamlı, fasiləsiz, dayanıqlı inkişaf” deməkdir. Azərbaycanlı alimlərdən N.Məmmədov göstərir ki, “ingilis dilinin “sustain” - “möhkəmlətmək, kömək etmək” və “to be able” - “qabiliyyətli olmaq” sözlərindən əmələ gələn “inkişaf” termini inkişafın özü-özünü təmin etməsi, digər sözlə, təkan, gələcək irəliləməyə stimul verən inkişaf kimi başa düşülür.

Qeyd edək ki, “sustainable devolepment” ifadəsi rus dilində “yc-

---

[2] Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf. Bakı, 2017, səh. 20.

[3] Əhmədov M.Ə. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003, 520 s.

[4] Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişaf təntənəsi. Bakı, 2011, səh. 513.

тойчивое развитие" kimi işlənmək hüququ qazandığından 2003-cü ilə kimi bu ifadə respublikamızda əsasən Azərbaycan dilinə tərcüməyə uyğun olaraq "sabit və dayanıqlı inkişaf" kimi yayılmışdır. 2003-cü ildən sonra ölkəmizdə çap olunan tədqiqat əsərlərində və müxtəlif sənədlərdə həm davamlı, həm də dayanıqlı inkişaf ifadələri paralel olaraq işlədilir.

Nəticə etibarilə, bu gün davamlı inkişaf konsepsiyası təbiət-cəmiyyət münasibətlərini öyrənən alim və mütəxəssislər üçün metodologiya rolu oynayır. Bu baxımdan tədqiqatçı alimlər və mütəxəssislər təbii fəlakətlərin və antropogen qəzaların azaldılmasına yönələn, təbii sərvətlərin tükənməsini minimuma endirə bilən metod və vasitələri tapmalı, istehsal və istehlakın təbii sərvətlərin istismarına diktə etdiyi tələbləri elmi cəhətdən araşdırmalıdırlar. Əsas tədqiqatlar yaşayış tərzinin dəyişdirilməsi yolu ilə yüksək həyat səviyyəsinin, planetin sərvətlərindən asılılığının minimuma endirilməsi istiqamətinə yönəldilməlidir.

Davamlı iqtisadi inkişaf resursların ədalətli bölgüsünə, indiki və gələcək nəsillər arasında proporsionallığın yaradılması, yəni indiki nəslin tələbatının gələcək nəsillərin tələbatına toxunmadan ödənilməsi kimi ideyaya əsaslandığından iqtisadiyyatın davamlı inkişaf konsepsiyasını ədalətli bir yanaşma kimi qəbul etmək olar.

**2. İqtisadi inkişafın davamlı olması üçün dayanıqlılıq və etibarlılıq mühüm şərtdir.**

Qeyd etdiyimiz kimi, davamlı inkişafın əsas vəzifəsi cəmiyyətin tələbat və istəklərinin fasiləsiz (davamlı) ödənilməsi ilə ifadə olunur. Yada salsaq ki, iqtisad elminin də başlıca məqsədi cəmiyyətin sonsuz artan tələbatının məhdud resurslarla dolğun şəkildə təmin edilməsinə nail olmaqdır, onda davamlı iqtisadi inkişafın da əsas vəzifəsini oxşar şəkildə qəbul edə bilərik. Bu isə o deməkdir ki, "davamlı inkişaf" və "davamlı iqtisadi inkişaf"ın əsas məqsədləri də eyni olmaqla hər ikisi cəmiyyətin tələbatının fasiləsiz ödənilməsinə istiqamətlənmişdir.

Bəzən ədəbiyyatdlarda "davamlı inkişaf" dedikdə cəmiyyətin ümumi davamlı tərəqqisi, "davamlı iqtisadi inkişaf" dedikdə isə yalnız iqtisadi artıma əsaslanan fasiləsiz iqtisadi tərəqqi nəzərdə tutulmasına baxmayaraq, ümumilikdə bu anlayışlar çox oxşardır və biri - digərini inkar etmir. Bütün tədqiqatçılar da dinamik tərəqqini, dinamik iqtisadi artımı davamlılığın zəruri şərti kimi qeyd edirlər.

Son vaxtlar iqtisadi ədəbiyyatlarda "davamlı iqtisadi inkişaf"la yanaşı "dayanıqlı inkişaf" anlayışı da işlədilməyə başlamışdır. Bütövlükdə, fikrimizcə, davamlı və ya dayanıqlı iqtisadi inkişaf ölkənin, regionun ümumi inkişaf vəziyyətini əks etdirən göstəricilər sisteminin müsbət mənada dəyişməsini, artmasını və fasiləsizliyini əks etdirir. Bu anlayışlar arasında müəyyən fərqlər də görmək olar. Belə ki, dayanıqlı inkişaf əsaslı olmaqla davamlı inkişafın nisbətən uzunmüddətliliyinə və etibarlılığına dəlalət edir. Davamlı inkişafın uzunmüddətli olması üçün isə dayanıqlılıq və etibarlılıq mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatlar göstərir ki, hər bir ölkədə davamlı iqtisadi inkişafın özünəməxsus xüsusiyyətləri var. Bunlar iqtisadiyyatın tarixi inkişaf xüsusiyyətlərindən, ölkənin istehsal, o cümlədən insan potensialının kəmiyyət və keyfiyyət göstəricilərindən, təbii resurslarından, istehlak bazarının inkişafı vəziyyətindən, iqtisadiyyatın tarixən formalaşmış strukturlarından və ölkədə yeridilən sosial-iqtisadi inkişaf siyasətindən asılıdır.

Bu baxımdan davamlılıq tələblərinə görə iqtisadi və sosial inkişaf tədbirləri iqtisadi fəaliyyətin neqativ təsirlərinin minimumlaşdırılması istiqamətində olmalı və gələcək fəaliyyət üçün heç bir çətinlik yaratmamalıdır. Əgər indiki nəslin fəaliyyəti gələcək nəslə və ya onun fəaliyyətinə hər hansı zərər vurarsa (məsələn, bərpa olunmayan ehtiyatların lazımsız, israfçılıqla istifadə olunması), bu halda zərəri tam kompensasiya etmək lazımdır.

Həmçinin, qloballaşma özünün müsbət xüsusiyyətləri ilə yanaşı, müəyyən problemlərin daha da kəskinləşməsinə şərait yaradır. Eyni zamanda, dünya tarixində baş vermiş hadisələrin xronoloji təhlili göstərir ki, insanlar arasında yaranmış qlobal bərabərsizliyin qarşısı alınmazsa və o, getdikcə daha da dərinləşərsə, yoxsulluq problemi ciddiləşərək dünyanın sabit iqtisadi inkişafına təhlükə yarada bilər.

Bu kimi amilləri nəzərə alaraq daim beynəlxalq sənədlərin tələblərinə hörmətlə yanaşan, müasir dünyaya sürətlə inteqrasiya edən və beynəlxalq təcrübədən yararlanan Azərbaycan Respublikasında da yoxsulluqla mübarizə islahatların əsas məqsədlərindən birinə çevrilmişdir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə təsdiq edilmiş 2003-2005 və 2008-2015-ci illəri əhatə edən yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramları hazırlanmış və uğurla icra edilmişdir.

Yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda yoxsulluq 2003-cü ildəki 49% səviyyəsindən 2020-ci ildə 6,2%-ə enmişdir.

Bütövlükdə, 2003-2020-ci illərdə ölkə üzrə yoxsulluq səviyyəsi diaqram 1-də verilmişdir.




***Diaqram 1. 2003-2020-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun illər üzrə səviyyəsi, faizlə***

*Mənbə: www.stat.gov.az; stat_yearbook2020.zip/ASG_2020/pdf internet resursları əsasında müəllif tərəfindən tərtib edilib.*

Araşdırmalar sürətli iqtisadi inkişafın yoxsulluğu minimum səviyyəyədək azaltmağa imkan versə də, bu problemin uzunmüddətli həllinin yalnız davamlı inkişafa keçidlə mümkün olduğunu göstərir.

**3. Davamlı iqtisadi inkişaf etibarlı maliyyə təminatı tələb edir.**

Hər bir ölkənin davamlı iqtisadi inkişafa nail olmasında maliyyə-investisiya potensialı və bu potensialdan səmərəli istifadəyə imkan verən siyasətin mövcudluğu müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan ölkədə uğurlu maliyyə-investisiya siyasəti yeridilməsi istər xarici, istərsə də yerli investisiyaların iqtisadiyyata cəlb edilməsi üçün vacib məsələlərdəndir.

Maliyyə-investisiya siyasətinin məqsədlərinə uyğun olaraq təkcə cəlb edilən investisiyaların həcmi deyil, vəsaitlərin səmərəli yerləşdirilməsi və düzgün bölüşdürülməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən də investisiyaların səmərəli coğrafi və sahəvi bölgüsü davamlı iqtisadi inkişafın qarşısında duran vacib problemlərdən biridir.

Fikrimizcə, davamlı iqtisadi inkişafın maliyyə-investisiya mənbələrinin müəyyənləşdirilməsində ölkənin ayrı-ayrı regionlarının maliyyə potensialının qiymətləndirilməsi, həm ölkə üzrə investisiya ehtiyaclarını, həm də regionun maliyyə imkanlarını aşkar etməyə də imkan verər.

Bütövlükdə, davamlı iqtisadi inkişafı təmin etmək məqsədilə təsərrüfat subyektlərinin öz vəsaitləri, cəlb edilmiş vəsaitlər, borc alınmış vəsaitlər, dövlət vəsaitləri və s. mənbələr hesabına resurslar formalaşır. Bu zaman qarşıda duran əsas məsələ isə, səmərəli mexanizmlərin köməyi ilə investisiya axınını güclü tələbat olan sektorlara yönəltmək, yekunda iqtisadi inkişafın daha mütərəqqi və yeni modellərini formalaşdırmaqdan ibarətdir.

Davamlı iqtisadi inkişafın əsas maliyyə-investisiya mənbələrindən biri kimi maliyyə bazarı və onun tərkib hissəsi olan qiymətli kağızlar bazarının köməyi ilə əsas iqtisadi subyektlər, o cümlədən əmtəə və xidmət istehsalçıları olan müəssisələr, maliyyə vasitəçiləri ilə banklar, kredit institutları, sığorta şirkətləri, fond birjaları arasında əlaqələrin güclənməsi də müstəsna əhəmiyyət kəsb edir. Belə ki, qiymətli kağızlar bazarı iqtisadi dövriyyədən kənarda qalmış maliyyə resurslarının hərəkətini təşkil edərək, onların istifadəsinin düzgün istiqamətləndirilməsini təmin etmək, dövlətin maliyyə və pul-kredit siyasətinin əsas aləti kimi çıxış etmək və s. baxımından iqtisadiyyatın davamlı inkişafinda mühüm rol oynayır.

Müasir dünyada qloballaşma və inteqrasiya prosesləri ilə əlaqədar resursların məhdud olduğu şəraitdə dövlətin maliyyə-investisiya siyasəti resurslardan istifadəni ən vacib istiqamətlərə yönəltməklə həm də istehsal fondlarının strukturunun yenidən qurulmasında da özünü göstərməkdədir. Bu məqsədlə aidiyyatı dövlət orqanları resursların səmərəsiz yerləşdirilməsinə imkan verməməli, onu əsasən strateji sahələrin qurulmasına və modernləşməsinə yönəltməli, rəqabətə davamlı, dünya standartlarına uyğun texnika və texnologiyalar tətbiq edən təsərrüfat subyektləri üçün əlverişli mühit və stimullaşdırıcı mexanizm formalaşdırmalıdır. Bütün bu işlərin qurulması və inkişafı isə daim sosialyönümlü olmalıdır.

Dövlətin investisiya siyasəti resurslardan maksimum səmərəli istifadə etməklə həm ölkədaxili, həm də xarici bazarların tələblərinə

cavab verən rəqabətqabiliyyətli istehsal sahələrini inkişaf etdirmək istiqamətini əsas hədəf kimi qarşıya qoymalıdır.

Bütövlükdə, Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyaların fasiləsiz xarakter daşıması, əksər hallarda isə ilbəil artması müşahidə olunur. Bunu cədvəl 1-dən daha aydın görmək olar.

***Cədvəl 1.***

***2005-2020-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların strukturu***

| | **2005** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2005-ci ilə nisbətən 2020-ci ildə artım, dəfə ilə** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi investisiya qoyuluşları: | | | | | | | | | |
| mln. manat | 6733,4 | 14118,9 | 20057,4 | 22706,4 | 24462,5 | 25877,0 | 24986,6 | 22484,0 | 3,3 |
| mln. dollar | 7118,5 | 17591,4 | 19547,2 | 14228,0 | 14213,3 | 15221,7 | 14698,0 | 13225,9 | 1,9 |
| Xarici investisiyalar: | | | | | | | | | |
| mln. manat | 4628,5 | 6 619,7 | 10998,9 | 16216,1 | 15697,3 | 14002,1 | 12119,5 | 10413,2 | 2,2 |
| mln. dollar | 4893,2 | 8 247,8 | 10719,1 | 10161,1 | 9120,5 | 8236,5 | 7129,1 | 6125,4 | 1,2 |
| Cəmi investisiyalarda xüsusi çəkisi, %-lə | 68,7 | 46,9 | 54,8 | 71,4 | 64,2 | 54,1 | 48,5 | 46,3 | - |
| Daxili investisiyalar: | | | | | | | | | |
| mln. manat | 2104,9 | 7499,2 | 9058,5 | 6490,3 | 8765,2 | 11874,9 | 12867,1 | 12070,8 | 5,7 |
| mln. dollar | 2225,3 | 9343,6 | 8828,1 | 4066,9 | 5092,8 | 6985,2 | 7568,9 | 7100,5 | 3,2 |
| Cəmi investisiyalarda xüsusi çəkisi, %-lə | 31,3 | 53,1 | 45,2 | 28,6 | 35,8 | 45,9 | 51,5 | 53,7 | - |

*Mənbə: www.stat.gov.az; stat-yearbook_2020.zip/ASG_2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Göründüyü kimi, 2005-ci ilə nisbətən 2020-ci ildə Azərbaycan iqtisadiyyatına yönəldilən cəmi investisiyalar 3,3 dəfə, o cümlədən xarici investisiyalar 2,2 dəfə, daxili investisiyalar isə 5,7 dəfə artmışdır.

Xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq məqsədilə 2003-cü ildə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) yaradılmışdır. Respublikada qeyri-neft sektoruna xarici

investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə fəaliyyət göstərən AZPROMO həm də investorlar, yerli istehsalçılar və dövlət, hökümətlə özəl sektor arasında əlaqələndirici rolunu oynayır.

Ümumilikdə, 2005-2020-ci ildə xarici investisiya qoyuluşlarının ümumi investisiyalarda payı diaqram 2-də təsvir edilir.




***Diaqram 2. 2005-2020-ci illərdə Azərbaycan Respublikasında ümumi investisiya qoyuluşlarında xarici investisiyaların xüsusi çəkisi***

*Mənbə: www.stat.gov.az; stat-yearbook_2020.zip/ASG_2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Azərbaycan Respublikası timsalında araşdırmalardan aydın olur ki, ölkəyə cəlb edilən investisiyaların, xüsusilə xarici investisiyaların daha çox hissəsi Abşeronda cəmləşsə də, ölkəmizin neft-qaz resursları istisna olmaqla, əmək ehtiyatlarının çoxu, hələ dövriyyəyə cəlb olunmamış təbii-iqtisadi resurs potensialı, böyük faydalı qazıntı ehtiyatları məhz regionlardadır. Ona görə də, gələcəkdə xüsusən xarici investisiyaların əsas hissəsinin regionların, o cümlədən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qəhrəman Azərbaycan Ordusu tərəfindən Ermənistanın işğalından azad olunmuş Qarabağın sosial-iqtisadi inkişafına yönəldilməsi həm də davamlı iqtisadi inkişaf tələblərindən irəli gələn bir zərurətdir. Bu məqsədlə regionlarda xarici və

daxili investisiyaların cəlb edilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi ardıcıl olaraq reallaşdırılmalıdır.

Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların qlobal səviyyədə təbliği, beynəlxalq reytinqlərdə ölkənin nüfuzunun artırılması, bu sahədə mövcud problemlərin təsbit edilməsi və aradan qaldırılması, həmçinin bütün bunların xarici investorların nəzərinə çatdırılması vacib məsələlərdəndir. Bu məqsədlə 13 iyul 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalanmışdır. Həyata keçirilən davamlı struktur islahatları respublikamızda iqtisadiyyatın səmərəliliyini daha da artırmış, milli iqtisadiyyatın özəyi olan təsərrüfat subyektlərində idarəetmənin sağlam prinsiplər əsasında inkişafı və şəffaflığı üçün zəmin yaradılmışdır.

Həmçinin, struktur islahatları nəticəsində dövlət xidmətləri və məhsul istehsalı sferasında da yeni prinsiplər əsasında idarəetməyə üstünlük verilmiş, bu məqsədlə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin genişləndirilməsi üçün bir sıra ardıcıl islahatlar həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 7 avqust 2020-ci il tarixli Fərmanı ilə "Azərbaycan İnvestisiya Holdinqi" publik hüquqi şəxs yaradılmışdır.

Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafı təmin etmək məqsədilə 2013-2020-ci illərdə əsas kapitala yönəldilmiş investisiyaların ümumi həcminin, o cümlədən müəssisə və təşkilatların, dövlət büdcəsinin, büdcədənkənar fondların, əhalinin vəsaitlərinin və bank kreditinin əhəmiyyəti xeyli artmışdır. Bu baxımdan ölkəmizdə əsas kapitala yönəldilmiş investisiyaların maliyyələşdirilməsi mənbələrini cədvəl 2-nin məlumatlarından daha aydın görmək olar.

Cədvəldən göründüyü kimi, əsas kapitala yönəldilmiş cəmi vəsaitlər COVİD-19 pandemiyasının təsiri nəticəsində 2020-ci ildə 2013-cü ilə nisbətən 3,5 faiz azalmışdır. Bütövlükdə, 2020-ci ildə respublikamızda əsas kapitala yönəldilən investisiyaların 56,4%-i müəssisə və təşkilatların öz vəsaitləri, 6,2%-i bank krediti, 27,4%-i büdcə vəsaiti, 5,8%-i isə əhalinin vəsaitləri hesabına həyata keçirilmişdir.

*Cədvəl 2.*

***Azərbaycan Respublikasında 2013-2020-ci illərdə maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər***

*(cəmi mln. man., xüsusi çəkisi %-lə)*

| Göstəricilər | 2013 | | 2015 | | 2017 | | 2020 | | 2013-cü ilə nibətən 2020-ci ildə, faizlə |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Xüsusi çəki | Cəmi | Xüsusi çəki | Cəmi | Xüsusi çəki | Cəmi | Xüsusi çəki | |
| Cəmi o cümlədən: | 17850,8 | 100,0 | 15957,0 | 100,0 | 17430,3 | 100,0 | 17226,1 | 100,0 | 96,5 |
| Müəssisə və təşkilatların öz vəsaitləri | 7826,6 | 43,8 | 10180,7 | 63,8 | 10866,0 | 62,3 | 9710,6 | 56,4 | 124,1 |
| Bank kreditləri | 455,3 | 2,6 | 1479,4 | 9,3 | 2466,0 | 14,1 | 1064,3 | 6,2 | +2,3 dəfə |
| Büdcə vəsaitləri | 859,0 | 4,8 | 3133,1 | 19,6 | 2385,8 | 13,7 | 4729,6 | 27,4 | +5,5 dəfə |
| Büdcədənkənar fondların vəsaitləri | 8080,4 | 45,3 | 297,4 | 1,9 | 202,5 | 1,2 | 258,4 | 1,5 | -31,3 dəfə |
| Əhalinin vəsaitləri | 540,5 | 3,0 | 699,8 | 4,4 | 1376,2 | 7,9 | 995,6 | 5,8 | +1,8 dəfə |
| Sair vəsaitlər | 89,0 | 0,5 | 166,6 | 1,0 | 133,8 | 0,8 | 467,6 | 2,7 | +5.2 dəfə |

*Mənbə: www.nk.gov.az; www.stat.gov.az; stat-yearbook_2020.zip/ASG_2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Fikrimizcə, müasir dövrdə postpandemiya və işğaldan azad edilmiş ərazilərin bərpası məqsədilə Azərbaycanın ümumi investisiya siyasəti hazırlanarkən müasir dövrün riskləri minimuma endirilməklə, investorların maraqları daha yüksək dərəcədə nəzərə alınmalı, daxili istehsal və istehlak bazarının investorların maraqlarına uyğun olmasına şərait yaradılmalı, istehsal sahəsinə xarici investorların cəlb edilməsi stimullaşdırılmalı, xarici investorlara kapital qoyuluşu üçün biznes mühitin cəlbedici olduğu haqqında tam məlumat verəcək, beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilən reytinqlərin artırılması istiqamətində iş aparan dövlət (regional) strukturlarının yaradılması məqsədəuyğun olardı. Həmçinin, əhalinin vəsaitlərinin iqtisadi dövriyyəyə cəlb

edilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

**4. Qeyri-neft sahələrinin inkişafı davamlı iqtisadi artıma əsaslı zəmin yaradacaqdır.**

Sürətli qloballaşma və inteqrasiya prosesləri ilə xarakterizə olunan müasir dövrdə davamlı inkişafı təmin etmək üçün qeyri-neft sektorunun da üzərinə böyük vəzifələr düşür. Bu baxımdan dünyada neft ölkəsi kimi tanınan Azərbaycanda da qeyri-neft sektorunun inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin prioritetini təşkil edir.

Respublikanın iqtisadi gələcəyinin qeyri-neft sektoruna bağlı olması əsas götürülərək bu sahədə əhəmiyyətli tədbirlər görülmüş, güclü sosial, iqtisadi bazar infrastrukturu yaradılmış, normal investisiya mühiti formalaşdırılmışdır ki, bu da öz növbəsində gələcəkdə milli iqtisadiyyatımızın davamlı və dinamik inkişafına qarşı mümkün ola biləcək kataklizmlərə, geoiqtisadi və qeyri-sabitliyin neqativ təsirlərinə davamlılığını kəskin artıracaqdır.

Həmçinin, qanunvericilik bazası da dövrün tələblərinə uyğunlaşdırılmış, normal bazar münasibətlərinin formalaşması və azad rəqabətin təmin edilməsi istiqamətində bir sıra nəticələr əldə edilmişdir. Qeyri-neft sektorunun hərtərəfli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri kimi sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə, kiçik və orta biznesin fəaliyyətinin səmərəliliyinin artırılması təmin edilmişdir.

Həyata keçirilmiş iqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə bir sıra Dövlət Proqramları və Konsepsiyalarla yanaşı milli iqtisadiyyat və iqtisadiyyatın on bir sektoru üzrə on iki Strateji Yol Xəritəsi hazırlanmış və Respublika Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Strateji Yol Xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcək, respublikanın strateji məqsədlərinə uyğun olaraq qlobal çağırışlara cavab verəcək, investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində respublikanın dünya iqtisadiyyatında mövqeyi gücləndiriləcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır. Bu məqsədlə Strateji Yol Xəritələrində milli hədəflərə uyğun olaraq prioritetlər, tədbirlər və indikatorlar müəyyənləşdirilmişdir.

Dünya təcrübəsi göstərir ki, hansı ölkələrdə qeyri-neft sektoru inkişaf edirsə, sahələrarası proprosionallıq təmin edilirsə, həmin ölkələrin tərəqqisi daha etibarlı və dayanıqlıdır. Bütün hallarda isə, davamlı inkişafın təmin edilməsində qeyri-neft sektoru xüsusi əhəmiyyət kəsb edir. Əksinə, yalnız bir sahəyə, bir istiqamətə əsaslanan inkişafın davamlı olması şübhə doğurur. Bu baxımdan da, bütün sahələrin proporsional inkişafının daha fasiləsiz və davamlı olacağı heç bir şübhə doğurmur. Bu isə, bir daha qeyri-neft sektorunun davamlı inkişafda xüsusi rolunu ifadə edir.

Qeyri-neft sektorunun prioritetlərinə bir sıra xidmət sahələri, kənd təsərrüfatı və emal sənayesi aid edilir. Əhalinin ərzaq təminatı və ölkənin ərzaq təhlükəsizliyinin əsas ağırlığı kənd təsərrüfatının üzərinə düşdüyündən bu sahənin inkişafı yalnız davamlı inkişaf baxımından deyil, ümumilikdə cəmiyyətin normal yaşayışı, yeyinti sənayesinin xammal bazası, iqtisadi təhlükəsizliyi və s. baxımından da zəruridir. İslahatların intensivliyinin təmin edilməsi baxımından “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” xüsusi əhəmiyyət kəsb edir.

Respublikamızda həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, son 15 ildə ÜDM-in həcmi kəskin sürətdə artmaqla onun strukturunda da ciddi dəyişikliklər olmuşdur ki, bunu da cədvəl 3-dən görmək olar.

Cədvəldən göründüyü kimi, 2005-ci ilə nisbətən 2020-ci ildə ÜDM 5,8 dəfə artdığı halda, neft-qaz sektoru 3,7 dəfə, qeyri-neft sektoru 7,4 dəfə, məhsula və idxala xalis vergilər 7,4 dəfə artmışdır. Müsbət məqamlardan biri də ondan ibarətdir ki, qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisi 2005-ci ildə 48,4% təşkil etdiyi halda, 2020-ci ildə 61,9% təşkil etmişdir.

Dünyada baş verən iqtisadi proseslər, COVİD-19 pandemiyasının doğurduğu qeyri-müəyyənlik Azərbaycanda da qeyri-neft sahələrinin inkişaf etdirilməsini, ayrı-ayrı sahələrin davamlı və dinamik inkişafına nail olunmasını bir zərurətə çevirmişdir. Eyni zamanda, bunun üçün xüsusilə, xidmət sferasında mövcud olan zəngin potensial imkanlar hələlik tam reallaşdırılmamışdır.

*Cədvəl 3.*

***2005-2020-ci illərdə Azərbaycan Respublikasında Ümumi Daxili Məhsulun həcmi və strukturunda baş verən dəyişikliklər***

*(həcmi mln. manat, xüsusi çəkisi %-lə)*

| | **2005** | **2010** | **2015** | **2018** | **2019** | **2020** | **2005-ci ilə nisbətən 2020-ci ildə artım, dəfə ilə** |
|---|---|---|---|---|---|---|---|
| **Ümumi daxili məhsul - cəmi** | **12522,5** | **42465,0** | **54380,0** | **80092,0** | **81896,5** | **72432,2** | **5,8** |
| o cümlədən: | | | | | | | |
| neft-qaz sektoru | 5520,9 | 20409,5 | 15382,2 | 33389,4 | 30051,9 | 20577,6 | 3,7 |
| Xüsusi çəkisi | 44,1 | 48,1 | 28,3 | 41,7 | 36,7 | 28,4 | |
| qeyri-neft-qaz sektoru | 6055,1 | 19179,0 | 34138,8 | 46702,6 | 44481,8 | 44862,1 | 7,4 |
| Xüsusi çəkisi | 48,4 | 42,2 | 62,8 | 58,3 | 54,3 | 61,9 | |
| məhsula və idxala xalis vergilər | 946,5 | 2876,5 | 4859,0 | 5040,6 | 7362,5 | 6992,5 | 7,4 |
| Xüsusi çəkisi | 7,5 | 6,8 | 8,9 | 6,3 | 9,0 | 9,7 | |
| Adambaşına düşən həcmi | 1494,3 | 4753,0 | 5706,6 | 8156,2 | 8268,8 | 7262,8 | 4,9 |

*Mənbə: www.nk.gov.az; www.stat.gov.az; stat-yearbook_2020.zip/ASG_2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Ümumilikdə tədqiqatlar göstərir ki, iqtisadiyyatın bütün sektorlarının proporsional inkişafını təmin etmədən etibarlı və uzunmüddətli inkişafa nail olmaq ehtimalı azdır. Bu baxımdan da istər neft, istərsə də qeyri-neft sektorlarının balanslı və dayanıqlı formada inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir və birinin inkişafı digərinin inkişafını inkar etmir. Lakin dünyada neft ölkəsi kimi tanınan, neftdən gələn gəlirlərin ÜDM-də daha çox paya malik olduğu ölkələrdə qeyri-neft sektorunun inkişafı daha zəruridir.

**5. Ölkənin real şəraitinə uyğun büdcə-vergi sisteminin formalaşması davamlı iqtisadi inkişafın maliyyə təminatında müstəsna əhəmiyyət kəsb edir.**

Tədqiqatlar göstərir ki, dövlətin əsas maliyyə dayağı olan büdcə ilə milli iqtisadiyyatın davamlı inkişaf tələblərinin uzlaşdırılması olduqca vacib olmaqla, dövlət büdcəsinin xərcləri davamlı inkişafa dair seçilmiş hədəflərə doğru istiqamətlənməli və ona şərait yaratmalıdır.

Ölkədə davamlı iqtisadi inkişaf səviyyəsindən və digər parametr-

lərdən asılı olmayaraq dövlət büdcəsinin xərclərinin səmərəli idarə olunması ən vacib problemlərdən biri olmaqla həmişə diqqət mərkəzində olmuşdur. Bütövlükdə, dövlət büdcəsi xərclərinin səmərəli bölüşdürülməsi və idarəedilməsi hökümətin, o cümlədən büdcənin qarşısında duran vəzifələrə, eləcə də sosial-iqtisadi hədəflərə uyğun həyata keçirilməlidir. Bu baxımdan da son 15 ildə respublikamızda ayrı-ayrı sahələrə yönəldilən dövlət büdcəsi vəsaitlərinin dinamikası 4 saylı cədvəldə verilmişdir.

***Cədvəl 4.***

***Azərbaycan Respublikasının 2005-2020-ci illərdə dövlət büdcəsi xərclərində struktur dəyişikliklərinin dinamikası (yekuna görə faizlə)***

| Göstəricilər | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| Xərclərin cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| o cümlədən: | | | | | | | | | |
| İqtisadiyyata | 20,9 | 41,6 | 40,6 | 36,0 | 23,2 | 25,0 | 34,4 | 32,5 | 26,1 |
| Sosial mədəni tədbirlərə | 39,4 | 24,7 | 24,0 | 25,0 | 32,6 | 28,8 | 22,6 | 23,2 | 30,0 |
| onlardan: | | | | | | | | | |
| Təhsilə | 17,4 | 10,0 | 8,3 | 9,0 | 9,4 | 9,9 | 8,6 | 9,0 | 10,5 |
| Mədəniyyət, incəsənət, informasiya və digər fəaliyyətə | 2,1 | 1,2 | 1,3 | 1,3 | 1,3 | 1,2 | 1,2 | 1,1 | 1,2 |
| Bədən tərbiyəsi | 0,2 | 0,2 | 0,2 | 0,2 | 2,5 | 0,2 | 0,2 | 0,3 | 0,1 |
| Səhiyyə | 5,4 | 3,6 | 3,5 | 4,0 | 4,0 | 4,0 | 3,1 | 3,6 | 6,4 |
| Sosial müdafiə | 10,2 | 9,5 | 10,4 | 10,3 | 14,7 | 11,8 | 9,2 | 9,2 | 10,8 |
| Sosial təminat | 4,1 | 0,13 | 0,13 | 0,2 | 0,18 | 1,6 | 0,3 | 0,2 | 1,0 |
| Elm xərcləri | 1,3 | 0,8 | 0,7 | 0,6 | 0,6 | 0,7 | 0,5 | 0,5 | 0,5 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarına | 9,6 | 5,7 | 5,9 | 6,2 | 6,3 | 6,8 | 5,8 | 6,2 | 6,9 |
| Qanunvericilik və icra hakimiyyəti, yerli özünü idarəetmə orqanlarının saxlanılmasına | 5,8 | 2,6 | 2,4 | 2,4 | 2,6 | 3,1 | 2,8 | 3,2 | 3,5 |
| Sair xərclər | 23,0 | 24,7 | 26,4 | 29,7 | 34,6 | 35,6 | 33,9 | 34,3 | 33,0 |

*Mənbə: www.nk.gov.az; www.stat.gov.az; stat-yearbook_2020.zip/ASG_2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Cədvəl məlumatlarından aydın olur ki, Azərbaycan Respublikasının dövlət büdcəsinin xərclərinin strukturunda baş vermiş ciddi dəyişikliklərdən biri də sosial-mədəni tədbirlərə yönəldilən büdcə xərclərinin faiz nisbətində gah azalması, gah da yüksəlməsi meyli olmuşdur. Bu da respublikamızın dövlət büdcəsinin sosial yönümlü büdcədən investisiya yönümlü büdcəyə çevrilməsinə dəlalət etməklə ümumi iqtisadi inkişafımızı təcəssüm etdirir. Ümumiyyətlə, 2005-ci ilə nisbətən 2020-ci ildə dövlət büdcəsindən sosial-mədəni tədbirlərə yönəldilən büdcə xərcləri 9,4 dəfə, ümumi xərclər isə 12,3 dəfə artmışdır. Yalnız 2014-2017-ci illərdə dövlət büdcəsi xərclərində iqtisadiyyata yönəldilən hissənin azalması müşahidə olunmuşdur ki, bunun da əsas səbəbi kimi qlobal və regional səviyyədə gedən mürəkkəb iqtisadi proseslərin, dünya bazarında neftin qiymətinin aşağı düşməsinin Azərbaycan iqtisadiyyatına müəyyən təsirlərini göstərmək olar. Bu dövrdə xarici iqtisadi və maliyyə təzyiqləri nəticəsində müəyyən layihələrin icrasının nisbətən ləngidilməsi zərurəti yaranmışdır. Lakin respublikamızda həyata keçirilən çevik, məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində sonrakı illərdə makroiqtisadi sabitliyin bərpası, maliyyə dayanıqlığının təmin edilməsi, valyuta bazarının tarazlaşdırılması 2018-ci ildən dövlət büdcəsindən iqtisadiyyata yönəldilən xərclərin həm faiz, həm də mütləq rəqəmlərlə həcminin artmasına səbəb olmuşdur.

Davamlı inkişaf tələblərinin reallaşdırılması nöqteyi-nəzərdən maliyyə-investisiya resursları, o cümlədən dövlət büdcəsi iqtisadiyyatın davamlılığının zəruri şərti kimi qəbul edilə bilər.

Qlobal iqtisadi məkana sürətlə inteqrasiya olunan dövlətlərin sosial-iqtisadi məqsədləri davamlı inkişafın tələblərindən, davamlı inkişafa dair beynəlxalq sənədlərdən qaynaqlanmaqla əsasən dövlətin əsas maliyyə mənbəyi olan dövlət büdcəsinin vəsaitləri hesabına reallaşır ki, bu da öz növbəsində onun xərc istiqamətlərinin davamlı inkişaf məqsədləri ilə uzlaşdırılmasını tələb edir.

Digər tərəfdən, ölkənin iqtisadi və sosial inkişafı dövlət büdcəsinə və qeyri-büdcə fondlarına ödəniləcək vergilərin və digər məcburi ödənişlərin səviyyəsi ilə də xarakterizə olunur. Bu nöqteyi-nəzərdən dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olan büdcə-vergi siyasətinin düzgün və ədalətli həyata keçirilməsi təbii sərvətləri az olan hər hansı bir ölkənin iqtisadiyyatının inkişafına, əks halda isə hətta zəngin təbii

şəraitə malik olan hər hansı ölkənin iqtisadiyyatının tənəzzülünə gətirib çıxara bilər.

Qeyd edilən parametrləri nəzərə alınaraq Azərbaycan Respublikasının müasir vergi sistemi 11 iyul 2000-ci ildə təsdiq edilərək 2001-ci il 01 yanvar tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilir. Vergi Məcəlləsinin respublikamızda davamlı inkişafa və iqtisadi proseslərə müsbət təsirini gücləndirmək məqsədilə hər il yüzdən artıq əlavə və dəyişikliklər edilir.

Davamlı inkişafın büdcə-vergi məsələləri vasitəsilə tənzimlənməsi və stimullaşdırılması xeyli dərəcədə ölkədəki vergi intizamının gözlənilməsi səviyyəsindən də asılıdır. Çünki əgər dövlət büdcəsi gəlirlərinin əsas mənbəyini təşkil edən vergi ödənişləri vaxtlı-vaxtında yerinə yetirilmirsə, onda dövlət bu sahədəki siyasətini də normal həyata keçirə bilməz.

Bu nöqteyi-nəzərdən AMEA-nın müxbir üzvü, professor A.F.Musayev qeyd edir ki, *“vergi yükünün iqtisadi sistemin formalaşdırdığı reallığa uyğun müəyyən olunması bütün dövrlər üçün həlli çətin olan problemlərdən biridir. Bu onunla bağlıdır ki, vergi sistemi bir tərəfdən dövlətin maliyyə ehtiyaclarına olan tələbatını ödəməli, digər tərəfdən isə vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan maraqlarını stimullaşdırmalıdır”.*[5]

Son dövrlər respublikamızda istər regional, istərsə də ümumi iqtisadi və sosial inkişafın sürətləndirilməsi, biznes mühitinin və rəqabətqabiliyyətinin təkmilləşdirilməsi, səmərəli məşğulluğun təmin edilməsi və s. istiqamətlərdə kompleks tədbirlər reallaşdırılmaqdadır. Lakin buna baxmayaraq, hələ də ölkədə maliyyə kapitalının hərəkəti əsasən Abşeron yarımadasında, müəyyən qədər də böyük şəhərlərdə təmərküzləşmişdir. Belə məqamlar isə pul vəsaitlərinin paytaxtda cəmləşməsilə regionlarda maliyyə-bazar infrastrukturunun və bank sektorunun zəif inkişafına dəlalət edir. Bu da öz növbəsində ayrı-ayrı regionların vergi potensialının qiymətləndirilməsində fərdi yanaşmanın olmasını obyektiv zərurətə çevirir.

Ona görə də ölkənin vergi potensialının qiymətləndirilməsi və bu-

---

[5] Musayev A.F. “Proporsional iqtisadi böyümədə inteqral vergi yükünün təyin olunması modeli // Strateji iqtisadi islahatlar: Qabaqlayıcı vergi siyasəti” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2018, səh. 444.

nun əsasında vergi bazasının hesablanması üçün əsas şərt makroiqtisadi durumun inkişaf tendensiyasına və perspektivinə təsir edən regional və sahəvi amillərin, eləcə də maliyyə axınlarının faktiki strukturunun göstəricilər sisteminin formalaşdırılmasının təmin olunmasından keçir. Hansı ki, bu halda vergi potensialının müəyyənləşdirilməsi üçün lazım olan göstəricilər sisteminə, ilk əvvəl, onun mənbələrinə təsir edən aspektlər daxil edilməlidir.

Beləliklə, davamlı inkişafın maliyyə təminatı mənbələri olan maliyyə-büdcə məsələləri tədqiq edilərkən vergi bazasının da qiymətləndirilməsi maliyyə imkanlarını aydınlaşdırmağa imkan yaradır ki, bu da davamlı və dayanıqlı iqtisadi tərəqqinin təmin edilməsi üçün olduqca vacibdir. Davamlı inkişafın təmin edilməsi üçün zəngin maliyyə-büdcə resursu, o cümlədən iri vergi potensialının olması zərurət təşkil etsə də, öz növbəsində, davamlı iqtisadi tərəqqi də daha irihəcmli və sabit maliyyə təminatına imkan yaradır.

**6. Azərbaycan iqtisadiyyatının dinamik artımı davamlı iqtisadi inkişafı şərtləndirmişdir.**

Hər bir dövlətdə davamlı iqtisadi inkişaf mərhələsinə keçidin bərqərar olması, ilk öncə, elmi cəhətdən əsaslandırılmış müvafiq milli iqtisadi tərəqqi strategiyasının konseptual əsaslarının işlənib hazırlanmasını və sistemli şəkildə reallaşdırılmasını tələb edir. Bu baxımdan Azərbaycanda mövcud iqtisadi reallıqları özündə təcəssüm etdirən modelin başlıca cəhətlərinin, prinsiplərinin tədqiqi göstərir ki, bu gün respublikamızda tətbiq olunan davamlı iqtisadi inkişaf modeli iqtisadiyyatı bazar prinsiplərinə, sərbəst sahibkarlığa, milli maraqların nəzərə alınması şərtilə beynəlxalq və regional əməkdaşlığın dərinləşməsinə, dayanıqlı iqtisadi tərəqqiyə əsaslanmaqla sosial, humanitar istiqamətlərin reallaşdırılması ilə birbaşa bağlı olan bir strateji inkişaf yoludur.

Azərbaycan Respublikasında iqtisadi inkişaf dinamikasının təhlili dövlət müstəqilliyinin bərpasından sonra olan dövrü bir neçə mərhələyə ayırmağın mümkünlüyünü göstərir. Belə ki, 1994-cü ilə qədər Azərbaycan iqtisadiyyatında tənəzzül hökm sürmüş, 1995-ci ildən başlayaraq 2003-cü ilə qədər ölkə iqtisadiyyatında köklü iqtisadi islahatlar, sabitlik və davamlı inkişaf müşahidə olunmuş, növbəti illərdən isə ölkə iqtisadiyyatında sürətli inkişaf başlamışdır. Nəhayət, Heydər

Əliyev ideyalarının və iqtisadi inkişaf strategiyasının uğurla davam etdirildiyi 2004-cü ildən sonrakı dövrü ölkə iqtisadiyyatının sürətli inkişaf dövrü kimi xarakterizə etmək olar.

Lakin 2014-cü ildən etibarən dünya iqtisadiyyatında yaranan risklər və 2020-ci ildən dünyada COVİD-19 pandemiyası ilə əlaqədar baş vermiş qeyri-müəyyənlik Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərmiş, iqtisadi siyasətdə mühüm dəyişiklik aparılmasını, islahatların daha da dərinləşməsini zəruri etmişdir. Mövcud şəraitə uyğun olaraq həyata keçirilmiş uğurlu iqtisadi siyasət və islahatlar nəticəsində ölkədə yaradılmış əlverişli biznes və investisiya mühiti beynəlxalq təşkilatların və maliyyə investorlarının hesabatlarında və qiymətləndirməsində öz əksini tapmışdır. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

✓ Biznes mühitinin formalaşdırılması və yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin nəticəsi olaraq Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2020" hesabatında Azərbaycan dünyada 20 ən islahatçı ölkə sırasında yer almış, 190 ölkə arasında biznesə başlama üzrə 9-cu, tikinti icazələrinin alınması üzrə 59-cu, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə 80-ci, əmlakın qeydiyyatı üzrə 44-cü, kreditlərin alınması üzrə 1-ci, kiçik investorların hüquqlarının müdafiəsi üzrə 105-ci, vergilərin ödənilməsi üzrə 40-cı, sərhəddə ticarət üzrə 83-cü, müqavilələrin icrası üzrə 28-ci və müflisləşmənin həlli indikatoru üzrə 47-ci olmuşdur;

✓ "Dünya Rəqabət Qabiliyyətliliyi İndeksi 2017-2018" hesabatına əsasən Azərbaycan 137 ölkə arasında 35-ci yer və MDB ölkələri arasında 8 ildir ki, 1-ci yer, o cümlədən makroiqtisadi mühit amilinə görə 9-cu, "inflyasiya altqrupu" üzrə 1-ci, "ümumi milli yığımın ÜDM-ə nisbəti"nə görə 12-ci, əmək bazarının səmərəliliyinə görə 33-cü pillədə qərarlaşmışdır. Ümumilikdə, ölkəmiz 12 indikatordan 9-u üzrə öz mövqelərini xeyli yaxşılaşdırmışdır;

✓ Dünya İqtisadi Forumunun nəticələrinə görə ölkəmiz İKT üzrə MDB məkanında 1-ci yerə çıxmışdır;

✓ Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "İnsan İnkişafı" İndeksinə görə 2005-ci ildə 101-ci yerdən 2019-cu ildə 187 ölkə arasında 70-ci yerə yüksəlmişdir. Son 10 ildə Azərbaycan insan inkişafı sahəsində ən sürətli irəliləyişə imza atan ölkədir və son

10 ildə postsovet məkanında illik 1,77 artım dərəcəsi ilə ən yüksək göstəriciyə malik olmuşdur. Nəticədə, Azərbaycan "orta insan inkişafı" ölkələr qrupunu tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil edilmişdir.

Qeyd edilən parametrlər də ona dəlalət edir ki, dünyada gedən nizamsız beynəlxalq iqtisadi proseslər, maliyyə durumunun mürəkkəbliyi şəraitində Azərbaycanda davamlı iqtisadi inkişaf və makroiqtisadi sabitlik, milli iqtisadiyyatın əlverişli mövqeyi də qorunub saxlanmışdır. Həyata keçirilmiş uğurlu iqtisadi proqram və layihələr nəticəsində ÜDM-in orta illik artımı 2019-cu ildə 2,2%, o cümlədən qeyri-neft sektoru üzrə 3,5% olmuş, onun ÜDM-də xüsusi çəkisi 61,0% təşkil etmişdir. Eyni zamanda, adambaşına düşən ÜDM 2003-cü ilə nisbətən 6 dəfə artmış, özəl sektorun ÜDM-də payı 81,9%-ə çatmışdır. Bütövlükdə, 2003-2020-ci illərdə ölkə iqtisadiyyatına qoyulan daxili və xarici investisiyaların həcmi davamlı olaraq artmış, sosial sahənin inkişafına yönələn dövlət investisiyalarının həcmində də dinamik artım qeydə alınmışdır.

Həyata keçirilmiş iqtisadi siyasətin nəticəsi olaraq sosial sferada da böyük nailiyyətlər əldə edilmişdir:

✓ orta aylıq nominal əmək haqqı 2003-cü il ilə müqayisədə 2020-ci ildə 7,0 dəfə, əhalinin gəlirləri 6,9 dəfə, adambaşına düşən gəlirlərin həcmi isə 3,0 dəfə artmışdır;

✓ pensiyanın orta məbləği 2003-cü il ilə müqayisədə 2020-ci ildə 7,8 dəfə, minimum əməkhaqqı isə 4 dəfədən çox artırılmışdır;

✓ 2003-cü ildən etibarən ölkədə 1 milyon 102 mini və yaxud 74,4%-i daimi olmaqla 1 milyon 480 mindən çox yeni iş yeri yaradılmış, 2461 yeni məktəb binası, 500-dən çox səhiyyə obyekti və digər sosial obyektlər tikilib istifadəyə verilmişdir;

✓ yoxsulluq səviyyəsi 2020-ci ilin yekunlarına görə 2003-cü ildəki 49,0%-dən 6,2%-ədək azalmışdır.

Ümumilikdə isə, son 15 ilin makroiqtisadi göstəricilərinə görə respublikamızda iqtisadiyyatın dinamik tərəqqidə olduğu nəticəsinə gəlmək olar (cədvəl 5).

*Cədvəl 5.*

***Azərbaycan Respublikasında 2005-2020-ci illərdə əsas sosial - iqtisadi göstəricilərin indeksləri (əvvəlki ilə nisbətən, faizlə)***

| **Ümumi daxili məhsul (ÜDM)** | **2005** | **2010** | **2012** | **2015** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|---|
| | **126,4** | **105,0** | **102,2** | **101,1** | **100,2** | **101,5** | **102,2** | **95,7** |
| Sənaye məhsulu | 133,5 | 102,6 | 97,7 | 102,4 | 96,6 | 101,5 | 101,8 | 96,0 |
| Kənd təsərrüfatı məhsulu | 107,5 | 97,8 | 106,6 | 106,6 | 104,2 | 104,6 | 107,2 | 102,0 |
| Kapital qoyuluşu | 117,2 | 121,2 | 118,5 | 88,9 | 102,8 | 95,7 | 105,5 | 92,7 |
| Nəqliyyat sektorunda yük daşınması | 109,4 | 103,2 | 103,6 | 100,2 | 101,8 | 101,6 | 102,2 | 80,2 |
| Nəqliyyat sektorunda sərnişin daşınması | 104,8 | 104,5 | 108,4 | 103,5 | 102,3 | 101,5 | 102,7 | 57,3 |
| Pərakəndə əmtəə dövriyyəsi | 113,0 | 108,8 | 109,6 | 110,9 | 102,5 | 103,0 | 103,6 | 98,7 |
| Əhaliyə pullu xidmətlər | 126,1 | 110,8 | 108,0 | 105,1 | 101,2 | 103,0 | 103,1 | 72,1 |
| Orta aylıq əməkhaqqı | 124,3 | 111,2 | 109,4 | 105,0 | 105,7 | 103,0 | 116,6 | 111,4 |
| Əhalinin gəlirləri | 122,3 | 113,3 | 113,9 | 105,8 | 108,4 | 108,0 | 107,4 | 98,2 |
| Əhalinin xərcləri | 117,3 | 110,5 | 110,7 | 113,5 | 111,9 | 106,9 | 107,8 | 94,8 |
| Əhalinin sərəncamında qalan real gəlirlər | 112,6 | 108,1 | 113,1 | 102,2 | 96,9 | 105,7 | 105,9 | 97,1 |
| İstehlak qiymətləri indeksi | 109,6 | 105,7 | 101,1 | 104,0 | 112,9 | 102,3 | 102,6 | 102,8 |
| Sənaye məhsulları istehsalçılarının qiymət indeksi | 117,3 | 130,5 | 104,5 | 69,4 | 136,8 | 126,0 | 103,2 | 75,2 |

*Mənbə: www.stat.gov.az; stat-yearbook_2020.zip/ASG_2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Cədvəldən göründüyü kimi, 2005-2019-cu illərdə əksər makroiqtisadi göstəricilər artmış, 2019-cu ildə isə bütün göstəricilər üzrə artım müşahidə edilmişdir ki, bu da ölkədə həyata keçirilən düzgün iqtisadi və sosial siyasətin nəticəsidir. Lakin 2020-ci ildə dünyada baş vermiş COVİD-19 pandemiyası ilə əlaqədar respublikamızda da bir sıra göstəricilərdə geriləmələr baş vermişdir.

Müəyyən obyektiv çətinliklərə baxmayaraq bütövlükdə ölkədə müsbət iqtisadi dinamika təmin olunsa da, iqtisadi tərəqqinin davamlı və etibarlı dinamikasının saxlanması bir sıra tədbirlərin reallaşdırılmasını zərurətə çevirmişdir. Fikrimizcə, ölkədə iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi və neftdən asılılığın azaldılması, ayrı-ayrı regionlara konkret ixtisaslaşma istiqamətlərində dövlət dəstəyinin göstərilməsi, ixrac proseslərində dövlətin yaxından iştirakı kimi məsələlərə xüsusi diqqət yetirilməlidir. Bu məqsədlə dövlət tərəfindən məhsulların alınması və xarici bazarlarda reallaşdırılması məsələsi də nəzərdən keçirilə bilər. Bu halda, qeyri-neft sektorundan ölkəyə valyuta daxil olmaları arta bilər ki, bu da iqtisadi tərəqqinin davamlılığı, xüsusilə neftin qiymətinin azalması, manatın ucuzlaşması kimi hallara qarşı dayanıqlılığı artıra bilər.

Azərbaycan Respublikasında aparılmış köklü islahatlar nəticəsində əhəmiyyətli sosial-iqtisadi dəyişikliklər baş vermiş, məhsulların xarici bazarlara çıxışının sürətləndirilməsi məqsədilə yeni əlverişli iqtisadi mühit formalaşmışdır.

Belə ki, "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 sentyabr 2016-cı il tarixli Sərəncamı respublikamızda ixrac potensialının artırılmasına və xarici bazarlara çıxışın sürətləndirilməsinə xidmət edir. 2016-cı ildən etibarən ölkədə istehsal olunan məhsullar və istehsalçılar barədə məlumatları özündə əks etdirən www.azexport.az İnternet portalı formalaşdırılmışdır. Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən portal geniş əhatə dairəsi olan Alibaba.com, All.biz və dünyanın digər məşhur onlayn ticarət platformalarına inteqrasiya edilmişdir.

Qeyd edilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2017-ci il tarixli "Rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər

haqqında" Fərmanına uyğun olaraq İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ixracatçıların elektron xidmətlərdə dolğun formada istifadəsini təmin edir. Azexport.az internet portalında "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" ("Digital Trade Hub of Azerbaijan") bölməsinin vasitəsi ilə sənədlər, o cümlədən müqavilələr elektron formada tərtib edilərək imzalanır. Həyata keçirilmiş tədbirlərin nəticəsidir ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2019-cu ilin "İxrac icmalı"na əsasən respublikamızın ixracı 19,6 milyard ABŞ dolları təşkil edərək ötən ilin müvafiq dövrünə nisbətən 1,0% artdığı halda, 2020-ci ildə 13,7 milyard ABŞ dolları olmaqla, 30,0 faiz azalmışdır ki, bu da dünyada baş vermiş proseslərlə əlaqədardır.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi" yaradılmışdır. Agentlik respublikamızda kiçik və orta sahibkarlığın inkişafını dəstəkləməklə, təsərrüfat subyektlərinə bir sıra xidmətlər göstərməklə, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirir.

Beləliklə, Azərbaycan iqtisadiyyatının inkişafının davamlılığı istiqamətində aparılan araşdırma və təhlillər göstərir ki, bütövlükdə ölkədə müsbət iqtisadi dinamika təmin olunmuşdur.

**7. Ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsinin vacib şərtlərindən biri kimi sağlam rəqabət mühiti formalaşdırılmalı və tədricən gücləndirilməlidir.**

Dünya təcrübəsi və iqtisadi proseslər göstərir ki, bazar münasibətlərinin dövlətin iqtisadi proseslərə müdaxiləsini dəstəkləmədiyinə baxmayaraq bir çox iqtisadi proseslərdə dövlətin müdaxiləsi qaçılmaz olur ki, bu da dövlətin tənzimləyici funksiyalarının zəruriliyindən irəli gəlir. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində dövlətin əsas vəzifələrindən biri də təsərrüfat subyektlərinin, sənayenin, milli iqtisadiyyatın inkişafı naminə əlverişli rəqabət mühitinin formalaşması üçün lazımi şərait yaratmaqdan ibarətdir.

Təsadüfi deyil ki, bu kimi amillər nəzərə alınaraq dünyanın ayrı-ayrı ölkələrində raqabətqabiliyyətinin yüksəldilməsinə yönəldilmiş

müxtəlif tədbirlər görülür. M.Porterin fikrinə görə, bu tədbirlərə devalvasiya, özəlləşmə, məmulatların keyfiyyəti və ətraf mühitin çirklənməsi sahəsində standartların yumşadılması, müxtəlif korporasiya və firmalar arasında əməkdaşlığa yardım etmək, birləşmələri stimullaşdırmaq, vergi islahatları, regional inkişaf, kadr hazırlığının təkmilləşdirilməsi, elmi tədqiqatlara ayrılan dövlət xərclərinin artırılması, yeni müəssisələrin maliyyələşdirilməsi üzrə dövlət proqramının qəbul edilməsi və s. aiddir.[6]

Öz növbəsində, milli iqtisadiyyatın, o cümlədən sənayenin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi üçün isə bir sıra tədbirlərdən istifadə edilir. İlk növbədə, kooperasiya layihələri əsasında qabaqcıl texnologiyaların mənimsənilməsi, ETT-nin nailiyyətlərinin tətbiqinin genişləndirilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi, rəqabətqabiliyyətli yeni növ məhsulların buraxılması məqsədi ilə təsərrüfat subyektlərinin innovasiya fəaliyyətinin stimullaşdırılması məqsədəuyğun sayılır. Digər tərəfdən, texnoloji səviyyənin durmadan artması, tərəfdaşlarla sıx əməkdaşlığın yaradılması ilə əlaqədar olaraq əmək məhsuldarlığı səviyyəsinin yüksəldilməsi, bu istiqamətdə silsilə tədbirlər görülməsi, ölkədə sənayenin bütün sahələrinin dinamik inkişafına imkan verən mühitin yaradılması, kapital qoyuluşunun cəlb olunması və vəsaitlərin optimal bölüşdürülməsi kimi məsələlər də diqqət mərkəzində olmalıdır.

Araşdırmalar göstərir ki, milli sənayedə rəqabət üstünlüyünün yaradılması və möhkəmləndirilməsi üzrə siyasət hazırlanarkən bəzi məsələlərin də nəzərə alınması məqsədəuyğun olardı. Belə ki, rəqabət üstünlüyünü, ilk növbədə, müəssisələr özləri yaratmalı, ən azı buna can atmalı və inkişaf etdirməlidirlər. Məhz bu səbəbdən də təsərrüfat subyektləri özləri bu işdə öndə getməlidirlər.

Milli sənayedə rəqabət üstünlüyünün yaradılması və möhkəmləndirilməsi üzrə siyasət hazırlanarkən rəqabət qabiliyyətinin yüksəldilməsi, dinamik inkişaf etdirilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübədən yararlanmaq məqsədəuyğundur. Lakin nəzərə almaq lazımdır ki, milli üstünlük əldə edilməsi işində eyni sahələrdə, eyni strategiya və dövlət

[6] Портер, М. Конкурентного преимущество: Как достичь высокого результата и обеспечить его устойчивость. М., 2008, 720 с.

proqramı ilə başqa ölkələrin nümunəsinin olduğu kimi təkrarlanması ölkənin inkişafında müəyyən uğurlar əldə etməyə imkan versə də, bu əsasən qısamüddətli olur. Ona görə də, hər bir dövlətin əsas vəzifəsi milli üstünlüyün dərin köklərini müəyyən etmək və onların reallaşdırılması üçün siyasi-iqtisadi təşəbbüslər göstərməkdən ibarət olmalıdır.

Bu baxımdan qloballaşma və inteqrasiya proseslərində səmərəli iştirak etmək, bu proseslərin təsiri ilə formalaşan davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, milli və dövlətçilik maraqlarının təmin olunmasını və sosial rifahın daha da yaxşılaşdırılmasını reallaşdırmaq məqsədilə respublikamızda bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi Ölkə Prezidenti, cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını, 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"ni və 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i misal göstərmək olar.

Tədqiqatlar göstərir ki, milli iqtisadiyyatın rəqabət üstünlüyünün təkmilləşdirilməsi ölkə daxilində qabaqcıl və artan tələbin olmasından da asılıdır. Dövlət siyasəti, adətən, dövlət xərcləri, vergilər və kreditin dəyərində manipulyasiya etməklə daxili tələbin ümumi həcminə təsir etməyə istiqamətlənir. Lakin rəqabət üstünlüyünün təmin edilməsi baxımından tələblə əlaqədar daha geniş siyasi qərarlar zəruridir. Bu baxımdan əsas məsələ dövlətin iqtisadiyyatın konkret sahələrində tələbin başlıca şərtlərinə müxtəlif üsullarla təsiridir. Bu üsullardan istifadənin səmərəliliyinin artırılması və ehtimal edilən uğursuzluqların qarşısının alınması məqsədilə dərin elmi təhlillər aparılması məqsədəuyğun olardı.

Araşdırmalar göstərir ki, tələbə təsir etməyin geniş yayılmış formalarından biri də dövlətin əmtəə və xidmətlərin birbaşa alıcısı kimi çıxış etməsidir. Bu məsələ dövlət satınalmalarında ciddi və ədalətli rəqabət mühiti yaradıldığı hallarda rəqabət üstünlüyünə müsbət təsir göstərə bilər.

Bütövlükdə, rəqabət üstünlüyünün möhkəmləndirilməsi iri kapital qoyuluşları tələb edir. Bu zaman dövlət elə şərait yaratmalıdır ki, qısamüddətli konyuktura dəyişiklikləri nəticəsində səhmlərin qiymətdən

düşməsi kapital qoyuluşlarının həcminə mənfi təsir etməsin. Məsələn, Yaponiya və Almaniyada elə investisiya strukturu formalaşmışdır ki, investorlar səhmləri onların uzunmüddətli dövr ərzində dəyərinin artmasını əsas götürürlər və onları nadir hallarda satış obyektinə çevirirlər.

Ölkənin ümumi iqtisadi tərəqqisi, milli rəqabət üstünlüyünün yaradılması və möhkəmləndirilməsi üçün ölkə daxilində sağlam rəqabətin təmin olunması müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan, ciddi himayəçilik (proteksionizm) siyasəti hər hansı ölkənin təsərrüfat subyektlərini xarici rəqabətin təzyiqindən qoruyur. Bu siyasət bu və ya digər formada demək olar ki, bütün dövlətlərdə həyata keçirilir. Lakin nəzərə almaq lazımdır ki, bu halda rəqabət üstünlüyünün artırılması səyləri ixrac və idxalın bilavasitə tənzimlənməsinə deyil, maneələrin aradan qaldırılmasına yönəldilməlidir.

Araşdırmalar göstərir ki, rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və innovasiyayönümlü iqtisadiyyatın qurulmasına mənfi təsir edən amillərdən biri də kölgə iqtisadiyyatıdır. Kölgə iqtisadiyyatının genişlənməsi ölkədə həyata keçirilən makroiqtisadi tənzimləmə siyasətinin səmərəliliyini aşağı salır, maliyyə vəsaitlərinin qanunsuz dövriyyəsini və xaricə axınını sürətləndirir. Bütün bunlar isə daxili maliyyə vəsaitlərinin ölkənin iqtisadi inkişafı istiqamətində istifadəsini məhdudlaşdırmaqla maliyyə vəsaitləri çatışmazlığı yaradır.

Ona görə də, qeyd olunanları nəzərə alaraq iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məqsədi ilə ölkədə kölgə iqtisadiyyatının qarşısının alınması, vəsaitlərin qanuni şəkildə təsərrüfat dövriyyəsinə cəlb olunması, kölgə iqtisadiyyatına şərait yaradan, onun inkişafına təkan verən mənfi təzadların müəyyənləşdirilməsi və aradan qaldırılması, bütün istiqamətlərdə rəqabət qabiliyyətinin təmin olunması zəruri hesab edilir.

Həmçinin, sağlam rəqabət mühitinin formalaşdırılması məqsədilə inhisarçılığa qarşı tədbirlərin həyata keçirilməsi də davamlı iqtisadi inkişafa müsbət təsir edə bilər.

**8. Davamlı iqtisadi inkişafın təmin edilməsində innovasiya yönümlü və modernləşməyə əsaslanmış proqram və layihələrin reallaşdırılması müasir dövrün tələbidir.**

Müasir şəraitdə qloballaşma ilə paralel cərəyan edən informasiya-

texnologiya inqilabı dünyada iqtisadi inkişafın xarakter və şərtlərini də dəyişdirmişdir. Bütün bunlarla yanaşı, baş verən dəyişikliklər iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı qarşısında konkret tələblər qoyur. Buraya ilk növbədə, innovativlik və rəqabətqabiliyyətlilik daxildir. Məhz bu səbəbdən də müasir dövrdə milli iqtisadiyyatın bütün sahələrində, xüsusilə də sənaye sektorunda beynəlxalq standart və tələblərin tətbiqi zərurətə çevrilmişdir. Artıq qloballaşma və informasiya inqilabının nəticəsi olaraq milli iqtisadiyyatda yeni texnika və texnologiyanın genişmiqyaslı tətbiqi ictimai tərəqqinin aparıcı qüvvəsini təşkil edir.

Eyni zamanda, iqtisadi inkişafın xarakteri və şərtlərinin tamamilə yeni əsaslara söykənməsi də, cəmiyyətin modernləşməsini tələb edir.

Müşahidələr göstərir ki, modernləşmənin cəmiyyətə gətirdiyi əsas dəyişikliklərdən biri də mobilliyin artmasıdır. Belə ki, modernləşmə mobil olmayan cəmiyyətdən yüksək sosial mobilliyə və ciddi rəqabətə əsaslanan dinamik cəmiyyətə keçidi tələb və təmin edir. Bütün bunlar isə ictimai, iqtisadi və sosial istiqamətləri əhatə etsə də, yekunda baş verən dəyişikliklər iqtisadi tərəqqiyə səbəb olur. Bu da ondan irəli gəlir ki, cəmiyyətin mobilliyinin artması iqtisadi inkişafa təkan verən mühüm amilə çevrilir. Beləliklə, modernləşmənin yaratdığı dəyişikliklər ayrı-ayrı cəmiyyətlərin və milli iqtisadiyyatların davamlı tərəqqisini təmin etməklə ümumilikdə dünya iqtisadiyyatının da inkişafına təkan verir.

Təbii ki, istənilən sahədə hər hansı bir köklü modernləşmə güclü dövlət iradəsini tələb edir. Bu baxımdan qloballaşan dünyada fasiləsiz olaraq kəskinləşən rəqabət mübarizəsində yalnız o ölkələr qalib gələcəklər ki, onlar elmi-texniki və informasiya inqilablarının sürətlənməsi, bu sahədə ən yeni nəticələrinin maneəsiz tətbiqi üçün şərait yaradacaqlar. Fikrimizcə, respublikamızda da bu məsələlər nəzarətə götürülməklə müvafiq tədbirlərin görülməsi məqsədəuyğun olardı.

Araşdırmalar göstərir ki, respublikamızda milli innovasiya sistemi və siyasəti hələ tam formalaşmamışdır. Onun əsas ünsürləri olan elmi-texniki sfera, müəssisələr və innovasiya strukturları bir-birindən təcrid olunmuş, pərakəndə şəkildə fəaliyyət göstərirlər. Milli iqtisadiyyatın inkişaf strategiyası hələlik innovasiya yolu ilə inkişafa, milli və xarici

elmi yeniliklərdən tam istifadə olunmasına istiqamətlənməmişdir. Belə ki, Azərbaycanın milli sənayesində innovasiya situasiyası, bir tərəfdən, ölkədə müəyyən fundamental və texnoloji başlanğıclar, ixtisaslı elmi və mühəndis kadrlarının mövcudluğu, digər tərəfdən isə, milli sərvətin həmin vacib tərkib hissəsinin hələlik konkret innovasiyaların tətbiqinə yönəldilməməsi ilə səciyyəvidir.

Həmçinin, milli məhsulun, xüsusən xaricə göndərilən əmtəələrin rəqabət qabiliyyətinin yüksəldilməsində bazarın artan tələbinin rolu müşahidə olunur. Lakin bir sıra amillər, o cümlədən maliyyə vəsaitinin çatışmazlığı bu istiqamətdə innovasiya fəallığının artmasına mənfi təsir göstərir. Belə ki, yeni maliyyə strukturları (xüsusən kommersiya bankları) innovasiya layihələrinin reallaşdırılmasına vəsait qoymaqdan çəkinirlər. Ona görə də bu sahədə vəsait qoyuluşlarının dövlət tərəfindən stimullaşdırılması məqsədəuyğun olardı.

Qeyd edilənlərlə yanaşı, milli iqtisadiyyatda innovasiyalara mane olan amillərdən biri də maliyyə vəsaitlərinin kifayət qədər olmamasıdır. Ümumiyyətlə, dünya təcrübəsi də sübut edir ki, innovasiya fəaliyyətinin canlanması üçün büdcə vəsaitlərinin çatışmazlığının aradan qaldırılmasına olan ehtiyac özünü kəskin şəkildə büruzə verir. Bu sahədə canlanmanın olması məqsədilə ölkədə daxili və xarici mənbələrdən cəlb edilmiş sərmayə qoyuluşlarının innovasiya fəaliyyətinin genişləndirilməsinə yönəldilməsi iqtisadi siyasətin prioritet istiqaməti olmalıdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyəti yalnız bu halda sürətlə artırıla və davamlı inkişaf təmin edilə bilər.

Dövlət innovasiya fəaliyyətinə birbaşa maliyyə dəstəyi göstərməklə yanaşı, bu sahədə əlverişli şəraitin yaradılmasına da xüsusi diqqət yetirməlidir. Belə ki, iqtisadi qloballaşma və inteqrasiya dövlətlərin istehsal sahələri ilə bərabər innovasiya sistemlərini də qarşılıqlı sürətdə asılı vəziyyətə salmış, təsərrüfat subyektlərini innovasiyalardan fasiləsiz istifadə etməyə məcbur etmişdir.

**9. Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın əsasını təşkil edən ÜDM-in həcmi proqnozlaşdırılaraq müəyyən edilmişdir ki, 2030-cu ilədək ÜDM artan dinamika ilə inkişaf edəcəkdir.**

İqtisadiyyatın davamlı inkişafını xarakterizə edən əsas göstəricilər sistemində ÜDM mühüm rol oynadığından, davamlılığı şərtləndirən

digər göstəricilərlə ÜDM arasındakı asılılığın müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan iqtisadiyyatında sənaye məhsulunun həcmi, neft və qaz hasilatı hesabına digər sahələrlə müqayisədə daha yüksək olduğundan, bu sektordan əldə olunan gəlirlər də iqtisadi artımın təmin olunmasında əsas amillərdən biri hesab edilir. Həmçinin, kənd təsərrüfatı məhsullarının həcmi, əsas kapitala yönəldilmiş ümumi investisiyalar, dövlət büdcəsinin xərcləri, pul aqreqatları üzrə geniş pul kütləsi milli iqtisadiyyatın inkişafını xarakterizə edən göstəricilər sistemi üzrə iqtisadiyyatın davamlı inkişafını şərtləndirərək iqtisadi artıma təsir göstərirlər. Bu baxımdan da, Azərbaycan Respublikası üzrə aşağıdakı statistik məlumatlardan istifadə edərək 2008-2020-ci illər üzrə göstəricilərin ÜDM-ə təsirini qiymətləndirmək olar.

***Cədvəl 6.***

***ÜDM və davamlı inkişafın təmin edilməsi üzrə ona təsir edən göstəricilərin 2008-2020-ci illər üzrə dinamikası (mlrd. manatla)***

| İllər | Əsas kapitala investisiya qoyuluşu (X1) | Sənaye məhsulunun həcmi (X2) | Kənd təsərrüfatı məhsulunun həcmi (X3) | Dövlət büdcəsinin xərcləri (X4) | Geniş pul kütləsi (X5) | ÜDM. (Y) |
|---|---|---|---|---|---|---|
| 2008 | 13,33 | 29,7 | 0,16 | 10,77 | 8,49 | 40,14 |
| 2009 | 10,48 | 22,6 | 0,175 | 10,5 | 8,47 | 35,6 |
| 2010 | 14,12 | 27,98 | 0,188 | 11,77 | 10,53 | 42,47 |
| 2011 | 17,05 | 35,03 | 0,199 | 15,4 | 13,9 | 52,08 |
| 2012 | 20,25 | 34,57 | 0,263 | 17,42 | 16,77 | 54,74 |
| 2013 | 21,45 | 33,9 | 0,305 | 19,14 | 19,3 | 58,18 |
| 2014 | 21,89 | 32,11 | 0,359 | 18,71 | 21,57 | 59,01 |
| 2015 | 20,06 | 26,37 | 0,374 | 17,78 | 21,32 | 54,38 |
| 2016 | 22,71 | 32,3 | 0,409 | 17,75 | 20,89 | 60,43 |
| 2017 | 22,46 | 39,9 | 0,383 | 17,59 | 22,77 | 70,34 |
| 2018 | 25,88 | 47,68 | 0,385 | 22,73 | 24,04 | 80,09 |
| 2019 | 24,99 | 47,0 | 0,615 | 24,43 | 28,87 | 81,9 |
| 2020 | 22,48 | 37,27 | 0,796 | 26,42 | 29,19 | 72,4 |

*Mənbə: www.stat.gov.az; stat-yearbook2020.zip/ASG2020.pdf internet resursları əsasında müəllif tərəfindən hazırlanıb.*

Cədvəl 6-ya əsasən, illər üzrə Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafında mühüm rol oynayan ÜDM-lə, milli iqtisadiyyatın inkişafını xarakterizə edən bir sıra göstəricilər sistemi, o cümlədən sənaye və kənd təsərrüfatı məhsullarının həcmi, əsas kapitala yönəldilmiş ümumi investisiyalar, dövlət büdcəsinin xərcləri, pul aqreqatları üzrə geniş pul kütləsi amilləri arasındakı reqressiya təhlilinin aparılması üçün hazır riyazi proqram paketlərindən olan Eviews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar.

Bu məqsədlə Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqressiya tənliyi ilə tapılmış ÜDM-in illər üzrə qiymətləri və standart kənarlaşmaları, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xüsusiyyətlərindən görünür ki, alınmış reqressiya tənliyi proqnoza yararlıdır. Bu baxımdan qrafikdən istifadə edərək Azərbaycan Respublikasında ÜDM-in proqnoz qiymətləri müəyyənləşdirilmişdir.




***Qrafik 1. Azərbaycan Respublikasında ÜDM-in 2030-cu ilədək proqnozu.***

*Mənbə: Proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Ekonometrik təhlillərin nəticələri göstərir ki, Azərbaycan Respublikasında ÜDM-in proqnoz qiymətləri 2030-cu ildə artaraq 111,37 mlrd. manat olacaqdır ki, bu da 2020-ci illə müqayisədə 53,8 % artım deməkdir.

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, Azərbaycan Respublikasında davamlı iqtisadi inkişaf göstəriciləri üzrə ÜDM-ə təsir edən göstəricilərin təsir dərəcəsinin elastiklik əmsalı ilə qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, Eviews tətbiqi proqram paketinə uyğun olaraq ekonometrik təhlil nəticəsində müəyyənləşdirilmişdir ki, Azərbaycan Respublikasında iqtisadiyyatda əsas kapitala investisiya qoyuluşunun, sənaye məhsulunun, geniş pul kütləsinin həcmininin 1 faiz artması müvafiq olaraq ÜDM-in həcminin 0,04, 0,58 və 0,48 faiz artmasına səbəb olacaqdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, davamlı inkişafın təmin olunmasında milli iqtisadiyyatın inkişafını xarakterizə edən göstəricilərin, o cümlədən sənaye və kənd təsərrüfatı məhsullarının, əsas kapitala yönəldilmiş investisiyaların iqtisadiyyatın ayrı-ayrı sahələrində tənzimlənməsi mexanizmi dövrün tələblərinə uyğun olaraq daim təkmilləşdirilməlidir.

Beləliklə, iqtisadiyyatın davamlı inkişafının maliyyə mənbələrindən səmərəli istifadənin konseptual əsaslarının tədqiqi və ümumiləşdirilməsi nəticəsində əldə edilmiş yeni elmi yanaşmaları, **nəticələri, irəli sürülmüş təklif və tövsiyələri** aşağıdakı kimi ifadə etmək olar:

1. Azərbaycan Respublikasında milli iqtisadiyyatı inkişaf etdirmək məqsədilə liberal mütərəqqi siyasət, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasının təmin edilməsi, davamlı iqtisadi inkişafa və iqtisadiyyatın modernləşməsinə dəstək verən islahatların dərinləşməsi, qeyri-neft sahələrinin daha sürətlə inkişaf etdirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilmişdir. İqtisadiyyatın şaxələndirilməsi, rəqabət üstünlüyünün dəstəklənməsi ilə bağlı bir sıra Dövlət Proqramları, ölkə başçısının fərman və sərəncamları icra edilmiş, iqtisadiyyatın davamlı inkişafı və onun maliyyə mənbələrinin möhkəmləndirilməsi istiqamətində əsaslı zəmin yaradılmışdır.

2. Azərbaycan Respublikasının qlobal və regional proseslərə fəal inteqrasiya etdiyi müasir şəraitdə mövcud iqtisadi reallıqları özündə təcəssüm etdirən milli inkişaf xəttinin əsas cəhətlərinin sistemli təhlili göstərir ki, bu gün ölkəmizdə davamlı inkişaf modeli bazar iqtisadiyyatının tələblərinə, azad sahibkarlığa, beynəlxalq inteqrasiyaya, davamlı iqtisadi artıma əsaslanaraq, ilk növbədə, əhalinin sosial rifahının yaxşılaşdırılması ilə birbaşa bağlı olan bir tərəqqi yoludur.

3. Resursların istər nəsillər, istərsə də ölkələr arasında qeyri-bərabər paylandığını, bir çox hallarda səmərəsiz istifadəsini nəzərə alsaq, iqtisadiyyatın davamlı inkişaf konsepsiyasını ədalətli yanaşma kimi qəbul etmək olar. Fikrimizcə, davamlı iqtisadi inkişaf ilə bazar iqtisadiyyatının uzlaşdırılmasını səmərəli şəkildə təmin edən istehsal münasibətlərinin xüsusiyyətləri də araşdırılmalı, strateji məqsədlərin reallaşdırılması regional və ümummilli miqyasda qərarların (proqramların, strateji yol xəritələrinin) qəbul edilməsi prosesində dövlət siyasətinin istiqamətləri və demokratik mexanizmlərin qarşılıqlı əlaqəsi məsələsi daim diqqət mərkəzində saxlanılmaqla həyata keçirilməlidir.

4. Ölkənin əsas maliyyə dayağı kimi dövlət büdcəsi iqtisadiyyatın inkişafının davamlılığının da başlıca təminatçısı rolunda çıxış edir. Ölkə iqtisadiyyatının inkişaf səviyyəsindən və onun real imkanlarından asılı olmayaraq dövlət büdcəsi xərclərinin səmərəli idarə olunması bütün dövrlərdə həlli vacib olan problemlərdən biri kimi aktual olmuşdur. Bu baxımdan iqtisadiyyatın və sosial sahələrin inkişafının dövlət tərəfindən maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitlərin real tələbata uyğun optimal bölüşdürülməsinin zəruriliyi xərclərin səmərəli bölüşdürülməsi və idarəedilməsinin bütövlükdə dövlətin, o cümlədən büdcənin qarşısında duran vəzifələrə, eləcə də sosial-iqtisadi hədəflərə uyğun həyata keçirilməsini tələb edir.

5. Tədqiqatlar göstərir ki, davamlı istehsala keçmək üçün tələbatın strukturunun dəyişilməsinə uyğun səmərəli istehsala nail olunmalıdır. Xüsusən, inkişaf etməkdə olan ölkələr öz iqtisadiyyatlarını qurarkən optimal tələbat strukturlarını yaratmağa çalışmalıdırlar. Bu baxımdan, davamlı istehsala və istehlaka geniş mənada nail olmaq üçün hər bir ölkədə bütün mümkün mənbələrdən maksimum maliyyə vəsaiti əldə etməklə müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində yeni

innovativ texnika və texnologiyaların tətbiqi, eləcə də ekoloji səmərəliliyin artırılması yolu ilə iqtisadiyyatın modernizasiyasına nail olunması vacibdir.

6. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi üçün büdcə vəsaitləri, büdcədənkənar fondlar, investisiyalar, bank kreditləri və s. kimi zəruri maliyyə ehtiyatlarının mövcudluğu və onlardan səmərəli istifadə olunması vacib şərtlərdən biridir. Ölkənin maliyyə-investisiya siyasətinin və tətbiq olunan fiskal alətlərin, o cümlədən, maliyyə resurslarından istifadə proseslərinə nəzarəti təmin edən strateji idarəetmə strukturlarının müasir dövrün çağırışlarına adekvat olaraq yenilənməsi və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi təmin olunmalıdır.

7. Davamlı tərəqqinin təmin edilməsi mövcud maliyyə-investisiya potensialından istifadə səviyyəsindən çox asılıdır. Zənnimizcə, bu baxımdan uzunmüddətli davamlı iqtisadi inkişafı, iqtisadiyyatın dayanıqlılığını təmin edən həm regionlar, həm də sahələr üzrə investisiya ehtiyaclarını üzə çıxarmağa imkan yaradan üsul kimi mövcud resursların əvvəlcədən dəqiqliklə qiymətləndirilməsi məqsədəuyğundur.

8. Qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin bir çox hallarda xarici amillərdən daha çox asılı olması baxımından, ölkədə dövlət səviyyəsində, o cümlədən irihəcmli birgə və fərdi layihələr həyata keçirilərkən milli və dövlətçilik prioritetlərinin qorunması, eləcə də iqtisadi təhlükəsizliyin qorunub saxlanılması məsələləri xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

9. Davamlı iqtisadi inkişafın təmin edilməsi istiqamətində iqtisadi siyasət həyata keçirilərkən, yalnız milli bazarın formalaşdırılması məsələləri deyil, ölkənin iqtisadi təhlükəsizliyi baxımından prioritet sahələrin inkişafına da xüsusi diqqət yetirilməlidir. Bu nöqteyi-nəzərdən, fikrimizcə, davamlı iqtisadi inkişafı və iqtisadi təhlükəsizliyi təmin etmək məqsədilə real sektoru, eləcə də iqtisadiyyatın ayrı-ayrı sahələrini əhatə edəcək inklüziv iqtisadi siyasətin işlənib hazırlanması vacibdir.

10. Tədqiqatlar göstərir ki, sürətli qloballaşma və inteqrasiya prosesləri ilə xarakterizə olunan müasir davamlı inkişaf dövründə qeyri-neft sektorunun da üzərinə böyük vəzifələr düşür. İstər neft, istərsə də

qeyri-neft sektorlarının etibarlı, uzunmüddətli, balanslı formada inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir və birinin inkişafı digərinin tərəqqisinə təkan verir. Bu baxımdan Azərbaycanda qeyri-neft sahələrinin davamlı və dinamik inkişafına nail olunması artıq bir zərurətə çevrilməlidir.

11. Davamlı iqtisadi inkişafın resurs təminatını lazımi səviyyədə təmin etmək məqsədilə büdcə-vergi planlaşdırılması və proqnozlaşdırılması sistemi gəlirlərin dövlət büdcəsinə, yerli büdcələrə, büdcədənkənar dövlət fondlarına və s. səfərbər edilməsi mənbələrinə və imkanlarına əsaslanmalıdır. Ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsi, istehsalın inkişafı, təkmilləşdirilməsi və stimullaşdırılması məqsədilə büdcə-vergi mexanizmi vasitəsilə həyata keçirilən tədbirlərin daha geniş formada davam etdirilməsi məqsədəuyğun olardı.

12. Beynəlxalq təcrübə göstərir ki, milli iqtisadiyyatın rəqabətə dözümlülüyünü təmin etmək üçün ölkədə mövcud olan elmi-texniki informasiyanın kəmiyyət və keyfiyyəti getdikcə daha böyük əhəmiyyət kəsb edir. Zənnimizcə, bu halda informasiya təsərrüfat subyektlərində vaxt itirmədən hərəkət etmək zərurətini hiss etmək və öz fəaliyyətlərində ətaləti aradan qaldırmaq üçün bir vasitədir. O, mövcud sahələrdə rəqabət üstünlüyünün yüksəldilməsi və yeni sahələrdə müvəffəqiyyətli rəqabət aparılması işinin ayrılmaz tərkib hissəsidir. İqtisadiyyata cəlb edilmiş vəsaitlərin optimal şəkildə bölüşdürülməsi, onun üstünlüyə malik sahələrində yaxın strategiya kimi daxili bazarın təmin edilməsi və daxili rəqabət qabiliyyətliliyin yüksəldilməsi, iqtisadiyyatın istənilən sahəsinə investisiya qoyuluşu zamanı yerli iş adamlarına və daxili investisiyalara güzəştli şərtlərlə yanaşılması, sahibkarların əməli fəaliyyətlərində kəmiyyət deyil, keyfiyyət göstəricilərinə üstünlük verilməsi üçün müvafiq maarifləndirmə tədbirlərinin həyata keçirilməsini məqsədəmüvafiq hesab edirik.

13. Həyata keçirilmiş ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan Respublikası artıq özü xaricə sərmayə qoyan bir ölkəyə çevrilsə də, təbii-iqtisadi resurslarla, yeraltı və yerüstü sərvətlərlə zəngin olan ölkəmizdə ayrı-ayrı regionların ensklopediyasının (o cümlədən, İnternet resurslarında) hazırlanması da əlverişli olardı. Bu, ərazinin resurs potensialı, səciyyəvi xüsusiyyətləri, satış bazarları, region üzrə ənənəvi məhsullar və s. haqqında məlumat əldə etməyə imkan

verməklə regiona investisiya yatırmaq arzusunda olan investorlar üçün bələdçi rolunu oynayar, investisiya fəallığının yüksəldilməsi məqsədinə xidmət edərdi.

14. Ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının cəlb edilməsi davamlı və dayanıqlı iqtisadi tərəqqinin zəruri şərtlərindən biridir. Vəsaitlərin sahə və regionlar üzrə optimal yerləşdirilməsi baş verdikcə investisiyalar ümumi tərəqqinin və davamlı iqtisadi inkişafın əsas amilinə, təkanverici qüvvəsinə çevrilir. Müasir qloballaşma və inteqrasiya şəraitində dövlətin əsas vəzifələrindən biri də investisiya resurslarının bütün mənbələrini müəyyənləşdirmək və onu milli maraqlara uyğun istehsalın, o cümlədən qeyri-neft sektorunun yenidən qurulmasına, məhsuldar qüvvələrin optimal yerləşdirilməsinə yönəltməkdir. Belə mənbələrdən biri kimi əhalidə qənaət edilərək yığılmış vəsaitlərin səfərbərliyə alınaraq investisiyaya çevrilməsi mexanizmini işləyib hazırlamaq və onu reallaşdırmaq, ölkənin iqtisadi inkişafı və xarici bazarlara çıxışının təmin olunmasında müsbət rol oynaya bilər.

15. Hər bir dövlət innovativ ideyaların, ETT-nin nailiyyətlərinin bilavasitə maliyyələşdirilməsi ilə yanaşı onun nizamlanması və stimullaşdırılmasını da həyata keçirir, bu məqsədlə hər şeydən əvvəl, səmərəli iqtisadi mühit formalaşdırır. Bu baxımdan, səmərəli iqtisadiyyat dinamik və özünü inkişaf etdirən olmalı, bütün cəmiyyəti cəlb etməklə iqtisadi sferanı əhatə etməlidir. Eyni zamanda, cəmiyyətin bütün mövcud ehtiyatlarından səmərəli istifadə olunmasını təmin etməklə iqtisadiyyatın proporsional, inklüziv inkişafına nail olunmalıdır. Təbii ki, səmərəli iqtisadiyyat və ya əlverişli iqtisadi mühit elm və təhsili inkişaf etdirməklə ölkənin bütün intellektual potensialının reallaşdırılmasına çalışmalı, mütərəqqi təsərrüfat münasibətlərinə əsaslanmalıdır. Fikrimizcə, bu halda rəqabətqabiliyyətli milli innovativ iqtisadiyyat formalaşdırmaqla onun dinamik və davamlı inkişafına nail olmaq mümkündür.

16. Qloballaşma şəraitində bazarlarda rəqabət mübarizəsinin kəskinləşməsi, elm və texnologiyada sürətlə özünü göstərən dəyişikliklər təsərrüfat subyektlərini innovasiyalardan daimi və fasiləsiz istifadə etməyə məcbur edir. İqtisadiyyatın modernləşməsi əsasında rəqabətqabiliyyətliliyin yüksəldilməsi üçün ölkədə elmtutumlu və müasir texnologiyalara əsaslanan, ixracyönümlü, dünya standartlarına cavab verən

məhsulların istehsalının həcminin və çeşidinin artırılması zəruridir. Bizim qənaətimizə görə, Azərbaycanda milli innovasiya sistemi və siyasəti yeni tələblər baxımından hələ də tam formalaşmamış, iqtisadiyyatın inkişaf strategiyası hələlik kreativ elmi yeniliklərdən tam istifadə olunmasına yetərincə istiqamətlənməmişdir. Bu baxımdan da dövlət innovasiya fəaliyyətinə birbaşa maliyyə dəstəyi göstərməklə yanaşı, bu sahədə sinergetik fayda verə biləcək əlverişli mühitin yaradılmasına da xüsusi diqqət yetirməlidir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İbrahimov, E.Ə. Azərbaycan Respublikasının büdcə siyasəti və onun əsas istiqamətləri // – Bakı: Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat elmlər seriyası, – 2009, №2, – səh. 162-168. http://economics.com.az/index.php/kitabxana/bizim-s-rl-r/jurnalla/xeberler.html

2. İbrahimov, E.Ə. Sosial sahələrin inkişafında dövlət büdcəsinin səmərəliliyinin artırılması məsələləri // – Bakı: Azərbaycan Kooperasiya Universiteti "Kooperasiya: tarix və reallıqlar" mövzusunda II elmi-nəzəri konfransın materialları (məqalə və tezislər toplusu). – 2009, – səh. 218-227.

3. Ataşov, B.X., Novruzov, N.A., İbrahimov, E.Ə. Müəssisələrin maliyyəsi. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24 iyun 2009-cu il tarixli 796 saylı əmri ilə qrif verilmiş və ali məktəb tələbələri üçün dərslik kimi təsdiq edilmişdir. – Bakı: Kooperasiya, – 2009, – 21 ç.v.

4. İbrahimov, E.Ə. Dövlətin iqtisadiyyatı tənzimləməsi və stimullaşdırılmanın zəruriliyi və əsas istiqamətləri // – Bakı: "Azərbaycanın Vergi Xəbərləri" aylıq elmi-metodiki jurnal. – 2010, № 08,– səh. 32-37.

5. İbrahimov, E.Ə. Dövlətin sosial siyasətinin büdcə-maliyyə tənzimlənməsi // – Bakı: AMEA İqtisadiyyat İnstitutu, Azərbaycan Kooperasiya Universiteti. "İqtisadi artımın intensiv inkişaf problemləri" mövzusunda respublika elmi-praktiki konfransın materialları. – 2010, – səh. 254-259.

6. Novruzov, N.A., İbrahimov, E.Ə. Büdcə sistemi. Azərbaycan

Respublikası Təhsil Nazirliyinin 08 iyul 2011-ci il tarixli 1278 saylı əmri ilə qrif verilmiş və ali məktəb tələbələri üçün dərslik təsdiq edilmişdir. Bakı – 2012, – 30 ç.v.

7. İbrahimov, E.Ə. İnvestisiya yönümlü büdcə siyasəti iqtisadi inkişafın mühüm amilidir // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan İqtisadçılar İttifaqı, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu. "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" yolları mövzusunda Beynəlxalq Elmi-Praktiki Konfransın materialları.– 2012, – səh. 697-700.

8. Ataşov, B.X., Novruzov N.A., İbrahimov, E.Ə. Maliyyə nəzəriyyəsi. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.02.2014-cü il tarixli 148 saylı əmri ilə qrif verilmiş və ali məktəb tələbələri üçün dərslik kimi təsdiq edilmişdir. Bakı – 2014, – 40,5 ç.v.

9. İbrahimov, E.Ə. Maliyyə resursları və onun iqtisadi inkişafa təsiri // – Bakı: Azərbaycan Kooperasiya Universiteti. "Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. – 2014, – səh. 517-520.

10. İbrahimov, E.Ə. İqtisadi inkişafın davamlılığının sosial-iqtisadi və fəlsəfi aspektləri // – Bakı: Azərbaycan Kooperasiya Universitetinin "Kooperasiya" elmi-praktiki jurnalı, № 4 (39), – 2015, – səh. 13-17.

11. İbrahimov, E.Ə. Qloballaşma şəraitinin xarakterik cəhətləri və bunun iqtisadi inkişafın davamlılığına təsiri // – Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası-elmi-praktiki jurnal, (sentyabr-oktyabr), – 2015, – səh. 155-159. http://economics.com.az/images /fotos/xeberler_pdf/2015_5/21.Elsen_Ibrahimov.pdf

12. Ибрагимов, Э.А. Финансово – инвестиционные факторы устойчивости экономического развития // – Москва: "Экономика и предпринимательство. Международные научные исследования, – 2016, – стр. 427-430. В базу РИНЦ, в базу Agris https://www.elibrary.ru/item.asp?id=25694021

13. İbrahimov, E.Ə. Müasir dövrdə iqtisadiyyatın davamlı inkişafının fəlsəfi – konseptual və tarixi əsasları // – Bakı: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Maliyyə və uçot" jurnalı 2016/4, – 2016, – səh. 43-50.

14. Ибрагимов, Э.А. Национальное интересы и обеспечение экономической безопасности государства // – Санк-Петербург: "Глобальный научный потенциал" научно – практический журнал. – 2016, №7 (64), – стр. 50-55. İSSN 1997-9355 Импакт – фактор РИНЦ: 0,510 https://www.elibrary.ru/item.asp?id=26558283

15. İbrahimov, E.Ə. Davamlı iqtisadi inkişafın təmin olunmasında qeyri-neft sektorunun rolu və perspektivləri // – Bakı: Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin"Azərbaycan aqrar elmi" elmi-nəzəri jurnalı, – 2016 № 4, – səh. 6-9.

16. İbrahimov, E.Ə. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası və davamlı inkişafın təmin olunması məsələləri // – Bakı: AMEA-nın İqtisadiyyat İnstitutunun elmi əsərləri, – 2016, № 3, – səh. 41-47. http://economics.com.az/images /fotos/ elmi_eserler_pdf/2016_3/5%20Ibrahimov%20E.pdf

17. İbrahimov, E.Ə. Davamlı iqtisadi inkişafın maliyyə təminatı: dövlət büdcəsi // – Gəncə: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gəncə şəhər İcra Hakimiyyəti, Gəncə Dövlət Universiteti. Gənc alimlərin I beynəlxalq elmi konfransının materialları. – 2016, – səh. 105-108.

18. İbrahimov, E.Ə. Azərbaycanda iqtisadi dinamikanın davamlılıq baxımından təhlili // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, 2017 il 5, cild 5, – 2017, – səh. 119-128. http://unec.edu.az/application/uploads/2015/03/ADIU-EX-2017-2.pdf

19. Ибрагимов, Э.А. Роль финансово-инвестиционной безопасности в обеспечении устойчивого развития экономики // – Москва: "Наука и бизнес: пути развития" научно – практический журнал,– 2017, №3 (69), – стр. 49-54. İSSN 2221-5182. Импакт – фактор РИНЦ: 0,485

https://www.elibrary.ru/item.asp?id=29108686

20. Ибрагимов, Э.А. Основные условия взаимосвязи устойчивого развития с модернизацией // – Тамбов: Материалы X международной научно-практической конференции "Наука на рубеже тысячелетия". Паттайя, Таиланд, 30–31 марта 2017 года "Перспективы науки" Научно–рактический журнал. – 2017, №3(90), – стр. 77-80. İSSN 2077-6010 импакт-фактор РИНЦ:0,434

https://www.elibrary.ru/item.asp?id=29459761

21. İbrahimov, E.Ə. İqtisadiyyatın davamlı inkişafının əsas prinsipləri // – Bakı: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. "Müasir dövrdə davamlı inkişafın əsas istiqamətləri" mövzusunda respublika elmi–praktiki konfransın materialları. – 2017, – səh. 149-156.

22. İbrahimov, E.Ə. Davamlı milli iqtisadi inkişaf modelinin formalaşması xüsusiyyətləri // – Bakı: AMEA-nın İqtisadiyyat İnstitutu, Bakı Biznes Universiteti. AMEA-nın müxbir üzvü, i.e.d., prof. Akif Musayevin anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunmuş "Strateji iqtisadi islahatlar: Qabaqlayıcı vergi siyasəti" mövzusunda beynəlxalq elmi – praktik konfransın materialları. – 12 oktyabr 2017, – səh. 28-33. http://economics.com.az/images/fotos/Kitablar/Akif_konfrans/I_bolme.pdf

23. İbrahimov, E.Ə. Davamlı iqtisadi inkişafın təmin olunmasında xarici investisiyaların əhəmiyyəti // – Bakı: "AMEA-nın xəbərləri: İqtisadiyyat seriyası" jurnalı, – 2017, № 6, – səh. 58-59. http://science.gov.az/az/pages/nahchyivanskoe-otdelenie

24. İbrahimov, E.Ə. Maliyyə böhranları və onların davamlı iqtisadi inkişafa təsiri // – Naxçıvan: AMEA Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası, – 2018, № 1, – səh. 258-264. http://science.gov.az/az/pages/nahchyivanskoe-otdelenie

25. İbrahimov, E.Ə. Rəqabətqabiliyyətliliyin formalaşmasında dövlətin iştirakı məsələləri // – Bakı: Bakı Biznes Universiteti, Azərbaycan İqtisadçılar İttifaqı. İ.e.d., prof. İ.H.İbrahimovun anadan olmasının 70 illik yubileyi ilə əlaqədar "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji yol xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri" mövzusunda Respublika elmi-praktik konfransının materialları. – 2018, – səh. 273-285. http://bbu.edu.az/az/news/23/195

26. İbrahimov, E.Ə. Davamlı inkişaf şəraitində xarici investisiyalardan səmərəli istifadə istiqamətləri // – Bakı: Bakı Biznes Universitetinin "Audit" jurnalı, – 2018, № 1, cild 19, – səh. 55-62. http://audit-journal.az/files/items/19.pdf

27. İbrahimov, E.Ə. Davamlı inkişaf şəraitində qeyri-neft

sektorunun başlıca vəzifələri // – Bakı: Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun “Dirçəliş – XXI əsr” jurnalı, may, 184/2018. – 2018, – səh. 197-206.

28. Ibraghimov, E.A. Effective use of investments to ensure sustainable economic development // – Baku: Proceedings of the 6th international Conference on Control and Optimization with Inductrial Applications, – 11-13 july, Volume II, – 2018, – p. 166-169. Web of Sciencehttp://apps.webofknowledge.com/full_record.do?product=WOS&search_mode=GeneralSearch&qid=1&SID=E3ea8u4eiIZGvTo11tz&page=1&doc=1

29. İbrahimov, E.Ə. Rəqabətqabiliyyətli istehsalın formalaşdırılması davamlı iqtisadi inkişafın mühüm şərtidir // – Bakı: Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin “Azərbaycan aqrar elmi” elmi – nəzəri jurnalı, – 2018, № 4, – səh. 14-18.

30. İbrahimov, E.Ə. Xarici bazarlara çıxışın sürətləndirilməsində maliyyə-investisiya siyasətinin rolu // – Bakı: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Maliyyə və uçot” aylıq nəzəri və elmi-praktiki jurnalı, Bakı – 2018/08, – səh. 37-44.

31. İbrahimov, E.Ə. Davamlı iqtisadi ikişafın təmin edilməsində maliyyə-investisiya mənbələrindən səmərəli istifadə istiqamətləri // – Bakı: AR Təhsil Nazirliyi, Azərbaycan Koopersiya Universiteti, Azərbaycan İqtisadçılar İttifaqı, AR Kənd təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi. Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş “Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsin və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. – 2018, – səh. 772-778.

32. İbrahimov, E.Ə. İqtisadiyyatın davamlı inkişafının maliyyə-büdcə tənzimlənməsi və stimullaşdırılması problemləri. Monoqrafiya. Bakı – 2018, – 20 ç.v.

33. İbrahimov, E.Ə. Davamlı iqtisadi inkişaf şəraitində dövlətin maliyyə siyasətinin prioritet istiqamətləri // – Bakı: AMEA-nın iqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş “İqtisadi artım və ictimai rifah” mövzusunda beynəlxalq elmi praktik konfransın materialları. – 2018, – səh. 165-171.

34. İbrahimov, E.Ə. İnvestisiyalardan səmərəli istifadənin davamlı

iqtisadi inkişafın təmin edilməsində rolu // – Bakı: Azərbaycan Kooperasiya Universitetinin “Kooperasiya” elmi-praktiki jurnalı. – 2019, № 2 (53), – səh. 176-184.

35. İbrahimov, E.Ə. Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində dövlət büdcəsindən səmərəli istifadə yolları // – Bakı: Azərbaycan Dövlət Statistika Komitəsinin “Statistika Xəbərləri” elmi-praktiki jurnalı, – 2019, № 3, – səh. 4-11. http://etsim.az/upload/File/publication/12-2019/publication-22-file_az.pdf

36. İbrahimov, E.Ə. Davamlı inkişaf şəraitində dövlət büdcəsindən səmərəli istifadə istiqamətləri // – Bakı: AMEA-nın İqtisadiyyat İnstitutu, Azərbaycan İqtisadçılar İttifaqı. AMEA-nın həqiqi üzvü Akademik Z.Səmədzadənin 75 illiyinə həsr olunmuş “Azərbaycan iqtisadiyyatı qlobal dünya iqtisadiyyatında dəyişikliklər dövründə” mövzusunda respublika elmi konfransının materialları. – 2019, – səh. 439-441.

37. Ибрагимов, Э.А. Инновации и модернизация как необходимое условие устойчивого экономического развития в условиях глобализации // – Москва: “Экономика и предпринимательство” Международные научные исследование, – 2019, № 9, – стр. 50-54. В базу РИНЦ, в базу Agris https://www.elibrary.ru/item.asp?id=41800063

38. Ибрагимов, Э.А. Механизмы регулирования устойчивого экономического развития // – Москва: Интеграция науки в современном мире. 64-ая междурародная научная конференция. Июнь, 2020, № 6 (64), – ст. 272-274. ISSN 2411-1899 http://www.esa-conference.ru/

39. Ибрагимов, Э.А. Роль инноваций и модернизации в формировании конкурентоспособной экономики // – Санкт-Петербург: Научный диалог: Экономика и менеджмент, Сборник научных трудов по материалам XXVIII международной научной конференции. 08 мая 2020 г, – 2020, – стр. 8-14. SPLN 001-000001-0611-EM https://www.elibrary.ru/item.asp?id=42911629

40. Ibraghimov, E.A. Financial and investment issues in the strategic management of sustainable development of the economy // – Baku: Economic and Social Development 55th International Scientific Conference on Economic and Social Development Development,

Editors: *Altay Ismayilov, Azerbaijan State University of Economics, Azerbaijan Khatai Aliyev, Azerbaijan State University of Economics, Azerbaijan Manuel Benazic, University of Pula, Croatia*. – 18-19 june 2020, – p. 143-152. ISSN 1849-7535 https://www.esd-conference.com/upload/book_of_proceedings /Book_of_Proceedings_esdBaku2020_Vol2_Online.pdf

Dissertasiyanın müdafiəsi 22 iyun 2022-ci il tarixində saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Cavid pr. 115, e-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 may 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:17.05 2022

Kağızın formatı: A5

Həcm: 85979 işarə

Tiraj: 100